QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

№ 234 (6675) 21 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

## ŞUŞA: türk dünyasının mədəniyyət paytaxtı, düşmənin vay taxtı!




8

# 61 ilin 19 ili:

## Zirvəyə yürüş və Zəfərə aparan yol!




2

# Avropa Parlamentində korrupsiya qalmaqalı: *erməni izi görünməyə başladı!*



5

Bu günlərdə Avropa Parlamentinin bəlkə də tarixinin ən qalmaqallı korrupsiya faktı ortaya çıxıb. Lakin bu məsələdə üzə çıxan digər faktların erməni izini də ifşa etməsi mövzunu daha da aktuallaşdırır. Belə ki, dekabrın 9-da Brüsseldə beş nəfər parlament təmsilçisinin, o cümlədən, qurumun sədr müavini, yunan mənşəli Yeva Keylinin saxlanılmasının ardınca məlum oldu ki, korrupsiya...

## "Bu gün Türk dövlətləri arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyur"




4

## Karqo sifarişləri zamanı necə diqqətli olmalıyıq?



12

## Sayt və qəzetlərə yardım ayrıldı




4

## Azərbaycan 2036-cı ilə qədər təbii qazdan nə qədər qazanacaq?



4

## Erməni separatizmi və onların törətdikləri ekoloji terror



13

# 61 ilin 19 ili:

## Zirvəyə yürüş və Zəfərə aparan yol!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb.




**Azərbaycan tarixinin son 19 ili bir neçə gün sonra 61 yaşı tamam olacaq Prezident İlham Əliyevin rəhbərliyi dövrüdür. Şərəfli tariximizin məhz bu dövründə ən şərəfli tarix yazıldı. Azərbaycan xalqı və dövləti İlham Əliyevin rəhbərliyi altında özünün ən böyük vəzifəsini reallaşdırdı.**



### Dünya liderlərindən biri

Azərbaycan Prezidenti İlham Əliyevin tez-tez dünyanın ən nüfuzlu liderlərindən biri elan olunması onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Nüfuzlu beynəlxalq təşkilatların hesabat və sorğularında daim Azərbaycan Prezidenti liderlər sırasına düşür.

2008-ci ildə İlham Əliyev "WorldPublicOpinion.org"un sorğusunda Yaxın Şərq üzrə regional lider seçildi. "WorldPublicOpinion.org" dünya liderlərinin reytinqi ilə bağlı tədqiqatına görə, 20 ölkədə 20 minə yaxın respondent arasında keçirilmiş reytinq sorğusu nəticəsində Azərbaycan Prezidenti İlham Əliyev Yaxın Şərq üzrə regional lider seçilib. Belə ki, o, çox nüfuzlu dövlət başçılarını geridə qoydu.

Bundan sonra Azərbaycan Prezidenti bir neçə dəfə beynəlxalq təşkilatlar tərəfindən "İlin adamı" elan olunub, Ona müxtəlif ölkələrin ali mükafatları təqdim olunub. Bütün bunlar təbii ki, İlham Əliyevin həm ölkədə həyata keçirdiyi siyasətə, həm də beynəlxalq fəaliyyətinə görə verilib.

Bunlar, təbii ki, İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurudur. Son illər Azərbaycanda müşahidə olunan siyasi, iqtisadi və digər proseslər ölkəmizdə bütün sahələr üzrə sürətli inkişafın, milli maraqların, bəşəri ideyaların və demokratik prinsiplərin əksər dövlətlər üçün bir nümunə ola biləcəyini deməyə əsas verir.

İqtisadi, siyasi, demokratik islahatlar sahəsində qazanılmış uğurlar, ölkəmizin liderlik zirvəsini qoruması bunu təsdiqləyən başlıca amildir. Ölkəmizin gələcəyi təkcə iqtisadi amillərlə ölçülmür. Əgər Azərbaycanda müasir siyasi sistem yaranmasa, əgər demokratik prinsiplər tam şəkildə bərqərar olunmasa, bizim uğurlarımız müvəqqəti xarakter daşıyacaq"- deyən Prezident İlham Əliyev iqtisadi və siyasi islahatların paralel şəkildə aparılmasının bugünkü uğurlarda mühüm rol oynadığını bir daha diqqətə çatdırır. Prezident İlham Əliyev dünya səviyyəsində Azərbaycanın söz sahibi olduğunu, həmçinin XXI əsrdə dövlətlərin böyüklüyünün, yaxud kiçikliyinin fərq etmədiyini, dövlətin müstəqil siyasət yeridə bilməsinin əsas olduğunu ortaya qoydu.

### Demokratiyanın qarantı

Demokratik cəmiyyətin mövcudluğunu şərtləndirən amillərin ölkədə bərqərar olmasına çalışan dövlətimizin bu istiqamətdə atdığı addımlar göz önündədir. Azərbaycan sivil dəyərlərə sadiqliyini sözdə deyil, əməli işdə dünyaya nümayiş etdirir.

Dünyada demokratiyanın əsas göstəricilərindən biri də söz və mətbuat azadlığının səviyyəsidir. Bu gün ölkəmizdə azad mətbuatın inkişafı üçün normal şərait yaradılıb. Dövlət başçısı həmişə vurğulayır ki, insan hüquq və azadlıqlarının, o cümlədən fikir azadlığının müdafiəsi Azərbaycan dövlətinin ali məqsədi və fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir.

Söz və mətbuat azadlığının ölkəmizin demokratik inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini qeyd edən ölkə Prezidenti eyni zamanda jurnalistlərin peşə etikasından kənara çıxmayacaqlarına, peşəkarlıq səviyyələrini artıracaqlarına, milli-mənəvi dəyərlərə, insanların şərəf və ləyaqətinə hörmətlə yanaşacaqlarına ümid etdiyini bildirir. Dövlətimizin humanizm siyasətini yüksək dəyərləndirən beynəlxalq birlik imzalanan əfv fərmanlarını demokratik inkişaf yolunda atılan addım kimi təqdir edir. Bu fikir hər zaman qeyd olunur ki, Azərbaycan dövləti siyasətində insan amilinə yüksək dəyər verir.

Ardı Səh. 3



# 61 ilin 19 ili:

# Zirvəyə yürüş və Zəfərə aparan yol!

Əvvəli Səh. 2

Demokratik cəmiyyətin başlıca amillərindən biri də ölkədə çoxpartiyalı sistemin yaradılmasıdır. Ölkəmizdə 50-dan çox siyasi partiya qeydiyyatdan keçib. Hazırda günün əsas müzakirə mövzularından biri də "Siyasi partiyalar haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsidir. Həmin dəyişikliklərdən ən başlıcası partiyaların dövlət tərəfindən maliyyələşməsidir.

Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiqlənən "Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası", eyni zamanda "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" siyasi partiyaların dövlət tərəfindən maliyyələşməsini daha da aktuallaşdırdı.



### Azərbaycanı ucaldan adam

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz müxtəlif beynəlxalq təşkilatlara könüllü şəkildə üzv qəbul olunub. Beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yüksək səviyyədə yerinə yetirən dövlətimiz, eyni zamanda, atdığı hər bir addımında, siyasətində müstəqil olduğunu da nümayiş etdirir. Məhz bu səbəbdən Qoşulmama Hərəkatının lideri də Azərbaycandır. Azərbaycan dövlət olaraq bölgədə getdikcə daha möhkəm mövqeyə malik olur. Onun beynəlxalq nüfuzu möhkəmlənir. Dünya başa düşür ki, Azərbaycan dövlət olaraq daha sivil və demokratik yol tutub.

Ölkənin iqtisadi qüdrətinin artması ilə yanaşı olaraq geosiyasi əhəmiyyəti də yüksəlir. Xüsusilə Ön Asiyada və Şərqi Avropa məkanında baş verənlər Azərbaycanın vacibliyini önə çəkir. Avropaya və Asiyaya gedən yol da Azərbaycandan keçir. Bunlar təbii ki, ölkəmizin geosiyasi çəkisini artırır.

İlham Əliyevin xarici siyasətdə nümayiş etdirdiyi qətiyyətin təməlində daxili sosial-iqtisadi sabitliyin mövcudluğu əsas rol oynayır. Ölkənin bütün sahələrinin inkişafı cəmiyyəti motivasiya edir və ölkə rəhbərliyinin aktiv surətdə xarici siyasət yeritməsinə şərait yaradır.

Azərbaycan Prezidentinin çox fəal xarici siyasəti buna əsaslanır. Postsovet məkanında xarici siyasətdə onun qədər fəal olanı yoxdur. Azərbaycan prezidentinin bu fəal xarici siyasəti ölkənin sosial-iqtisadi inkişafının yüksək tempi ilə müşayiət olunub. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət etdi.

### İnkişaf modelinin yaradıcısı

Son 20 ildə ölkəmizdə bütün sahələrin böyük inkişaf tempi müşahidə olunub. Bu temp Azərbaycanı dünyada inkişaf tempi üzrə liderə çevirib. Ölkəmizin makroiqtisadi göstəricilərinin yüksəkliyi də beynəxalq imicimizin möhkəmlənməsinə təsir edir. Bu gün Azərbaycan 55 milyardlıq strateji valyuta ehtiyatları, 30 milyardlıq dövlət büdcəsi, 70 milyardlıq ÜDM-i ilə dünya iqtisadi məkanında güclü dövlət kimi tanınır.

Deməli, konkret olaraq xarici siyasətin təməlində daxili siyasətin uğuru durur. Azərbaycan dövlət quruculuğunda yeni şəraitə qədəm qoydu. Bunun bəhrələri aydınlığı ilə görünməkdədir. Qlobal iqtisadi böhran şəraitində inkişaf tempini davam etdirən çox az sayda ölkədən biri də Azərbaycandır. Beynəlxalq təşkilatların hesabat və proqnozlarına görə, Azərbaycan MBD və dünyada ən inkişafda olan ölkələrdən biridir.

Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü. İqtisadi inkişafına görə, dünyada lider dövlət olan Azərbaycanın dövlət büdcəsi, valyuta ehtiyatları, ölkəmizə sərmayə qoyuluşlarının həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. Ölkədə yüz minlərlə yeni iş yeri açıldı, yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə düşdü, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində dövlət proqramları icra edildi. Azərbaycanda qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu.

Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Bu məsələ regionların sosial-iqtisadi inkişafı dövlət proqramının birinci və ikinci mərhələsində yetərincə əksini tapdı. Nəhəng infrastruktur layihələrinin-Olimpiya idman-komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə nəqliyyat sisteminin yenidən qurulması Azərbaycanın dünyaya çıxışını təmin etdi.

Azərbaycanın bölgə siyasətində ardıcıl mövqe tutması öz bəhrəsini verməkdədir. Geosiyasi gedişlərin intensivləşməsi ölkəmizin mövqeyinə müsbət təsir göstərir. Son proseslər də bu istiqamətdə səylərin sürətləndiyini əks etdirməkdədir. Bu mövzuda daha önəmli görünən məqamlar var ki, onlar hadisələrin gələcək gedişatına ciddi təsir edə bilərlər.

### Müzəffər Ali Baş Komandan

İlham Əliyevin xalqımıza verdiyi söz müasir Azərbaycanın inkişafına, tərəqqisinə yönələn fəaliyyətin konsepsiyasına çevrilib. İlham Əliyevin xalqdan aldığı dəstəyin təməlində onun Heydər Əliyev siyasətinə sadiqliyi dayanır. Onun dövlət başında olduğu 19 ildə Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafla, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşayiət olunub. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayanır.

İlham Əliyevin 19 illik siyasətinin kulminasiyası isə 2020-ci ildə baş verən 2-ci Qarabağ müharibəsində qazanılmış möhtəşəm qələbə və Qarabağın düşmən işğalından azad edilməsidir. Ali Baş Komandan kimi o böyük peşəkarlıq və əzmlə Azərbaycan Ordusunun başında dayandı, xalqımızın ən böyük arzusunu və ulu öndərin vəsiyyətini yerinə yetirdi.

Bu yazını isə, Prezident İlham Əliyevin xalqa verdiyi sözlə bitirmək istərdim- "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da Vətənimizin uğurlu inkişafı üçün, Azərbaycanın çiçəklənməsi üçün mən əlimdən gələni əsirgəməyəcəyəm, Azərbaycan xalqına bundan sonra da xidmət edəcəyəm. Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

***Elçin Bayramlı***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev 2023-cü ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə maaşlarının tənzimlənməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1519 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ömər Həsən oğlu Eldarovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi barədə Sərəncam imzalayıb.



# “Bu gün Türk dövlətləri arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyur”

## Milli Birlik Partiyasının Sədr müavini, AK Parti Sədrinin birinci müavini və YAP Sədrinin müavini birgə mətbuat konfransı keçiriblər

**Şimali Kipr Türk Cümhuriyyətində Milli Birlik Partiyasının Sədr müavini - Baş katibi Oğuzhan Hasipoğlu, Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş və YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov birgə mətbuat konfransı keçiriblər.**

Milli Birlik Partiyasının Sədr müavini - Baş katibi iqtidar partiyaları arasında üçtərəfli görüşün mühüm əhəmiyyətə malik olduğunu söyləyib. Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi statusunda üzv qəbul edildiyini xatırladan Sədr müavini deyib ki, bu qərar Türk dövlətlərinin hakim siyasi partiyaları arasında münasibətlərin inkişafına da stimul verir.

Oğuzhan Hasipoğlu Milli Birlik Partiyasının AK Parti və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. O, bu səfərin yeni formatda, üçtərəfli əlaqələr müstəvisində əməkdaşlığa təkan verəcəyinə inamını ifadə edib.

AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş Türk dünyasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinin zəruriliyini diqqətə çatdırıb. O, TDT-nin IX Zirvə Görüşündə qəbul edilən qərarların türk dövlətləri arasında işbirliyinin genişləndirilməsinə əlverişli şərait yaratdığını söyləyib. Türk dövlətləri arasında münasibətlərin inkişafı kontekstində siyasi partiyalar arasında əlaqələrin gücləndirilməsindən bəhs edən AK Parti Sədrinin birinci müavini üçtərəfli görüşün bu baxımdan önəmli olduğunu bildirib.

Numan Kurtulmuş AK Partinin Yeni Azərbaycan Partiyası və Milli Birlik Partiyası ilə münasibətləri uğurla inkişaf etdirdiyini vurğulayıb. Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Numan Kurtulmuş üçtərəfli təmasların gələcək əməkdaşlıq üçün etibarlı zəmin yaratdığını söyləyib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu gün Türk dövlətləri arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Tahir Budaqov söyləyib ki, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanan Azərbaycanın yaratdığı reallıqlar Türk dövlətlərinin əməkdaşlığının dərinləşdirilməsi üçün yeni imkanlar formalaşdırıb. O, Azərbaycan ilə Türkiyənin milli maraqların qorunması üçün bir-birinə daim qətiyyətli dəstək nümayiş etdirdiklərini diqqətə çatdırıb. YAP Sədrinin müavini bildirib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri ilk növbədə hər iki ölkənin liderləri - cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın iradəsi və səyləri sayəsində uğurla inkişaf edir. O əlavə edib ki, Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti xalqları arasında əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur.

Tahir Budaqov ötən il Əməkdaşlıq Protokolu imzalayan, qarşılıqlı səfərlər həyata keçirən və ortaq maraqlara əsaslanan birgə təşəbbüslər reallaşdıran YAP ilə AK Partinin münasibətlərinin nümunəvi xarakter daşıdığını və qarşıda duran hədəflərə çatmağa geniş imkanlar yaratdığını qeyd edib. O, iki partiya arasındakı münasibətlərin əsas və örnək götürülərək səmərəli üçtərəfli əlaqələrin inkişaf etdirilə biləcəyini söyləyib. YAP Sədrinin müavini səfər çərçivəsində həyata keçirilən üçtərəfli görüşün partiyalar arasında münasibətlərin yol xəritəsini və gələcək birgə fəaliyyət imkanlarını müəyyən etmək üçün önəmli olduğunu söyləyib. Daha sonra jurnalistlərin suallarını cavablandırılıb.

# YAP nümayəndə heyəti Şimali Makedoniya Respublikasında səfərdədir

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Şimali Makedoniya Respublikasına səfər edib.

Şimali Makedoniya Türk Demokratik Partiyasının dəvəti ilə baş tutan səfər çərçivəsində YAP nümayəndə heyətinin Şimali Makedoniyanın Baş naziri Dimitar Kovaçevski ilə görüşü nəzərdə tutulur. Eyni zamanda, nümayəndə heyətinin rəhbəri Tahir Budaqovun Türk Demokratik Partiyasının sədri Beycan İlyas ilə görüşü olacaq. Bunlarla yanaşı, Yeni Azərbaycan Azərbaycan Partiyasının nümayəndə heyəti 2007-ci ildən Şimali Makedoniya türklərinin rəsmi bayramı kimi qeyd edilən 21 dekabr - Türkcə Təhsil Günü münasibətilə keçiriləcək təntənəli tədbirdə iştirak edəcək.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, YAP İdarə Heyətinin üzvü Musa Quliyev, Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli təmsil olunurlar.

# Azərbaycan 2036-cı ilə qədər təbii qazdan nə qədər qazanacaq?

“Şahdəniz” qaz-kondensat yatağının tammiqyaslı işlənməsi və hasilat həcminin ildə 26 milyard kubmetrə çatdırılması nəticəsində Azərbaycanın 2015-2033-cü illər ərzində ümumilikdə 20,3 milyard ABŞ dolları gəlir əldə edəcəyi gözlənilir. SİA xəbər verir ki, bu barədə Asiya İnkişaf Bankı (ADB) layihə ilə bağlı geniş hesabatında bildirib.

Qeyd edilib ki, Azərbaycan hökumətinin ”Şahdəniz” yatağının istismarından əlavə gəlirləri 2015-2035-ci illər ərzində 13,3 milyard ABŞ dolları səviyyəsində proqnozlaşdırılır: ”Bu gəlirlər Azərbaycana iqtisadiyyatı şaxələndirmək üçün daha çox maliyyə imkanları verir. Layihə həmçinin Avropanın enerji bazarını şaxələndirmək və enerji təhlükəsizliyini gücləndirmək üçün yeni enerji təchizatı mənbəyini təmin edir”.



Avropada təbii qaza olan tələbatdan danışan hesabat müəllifləri xatırladıblar ki, Rusiya ”mavi yanacağı”nın qitə ölkələrinə nəqli Ukraynaya müdaxiləsi ilə əlaqədar tətbiq edilmiş sanksiyalara görə dayandırılıb. Bu yaxınlara qədər Avropa Rusiyadan hər il 155 milyard kubmetr təbii qaz idxal edirmiş. İndi Avropa İttifaqı (Aİ) alternativ təchizatçılar axtarır. ”Azərbaycan hökuməti 2022-ci ildə Aİ-yə təbii qaz ixracını artırmağa razılaşıb və 2023-cü ilə qədər Avropaya tədarükün 12 milyard kubmetrə çatdırılacağı gözlənilir”, - hesabatda qeyd edilib.

Bankın məlumatlarına görə, ”Şahdəniz” yatağında təbii qaz hasilatı 2019-cu ildə 46 % artaraq 16,8 milyard kubmetrə, 2020-ci ildə isə demək olar ki, 8 % artaraq 18,1 milyard kubmetrə çatıb: ””Şahdəniz” yatağında hasilatın artımı 2019-cu ildə ikinci fazanın mərhələli şəkildə işə salınmasını əks etdirir. Dəniz platformaları və sahil terminalı artıq fəaliyyət göstərir. İlk təbii qaz həcmləri 2018-ci ilin iyununda, ikincisi həmin ilin dekabrında, üçüncüsü isə 2021-ci ilin iyununda əldə olunub. Yataqdan təbii qazın Cənubi Avropa bazarlarına ixracına 2020-ci ilin dekabrında Trans-Adriatik Boru Kəmərinin istifadəyə verilməsi ilə başlanılıb”.

ADB-nin proqnozlarına görə, 2042-ci ilə qədər ”Şahdəniz” yatağında ümumi təbii qaz hasilatı 489 milyard kubmetrə çatacaq. Bildirilib ki, ”Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi ilə bağlı planlara körpü vasitəsilə birləşdirilən iki dəniz platformasının tikilməsi, iki yarımdalma qurğusu ilə 26 sualtı quyunun qazılması, 550 metr dərinlikdə 500 kilometr uzunluğu olan sualtı kəmərin tikilməsi, Azərbaycan və Gürcüstanda əlavə ixrac gücü və Səngəçal terminalının genişlənməsi daxil idi. 2020-ci ilin dekabr ayına olan məlumata görə, 26 quyudan 20-si qazılıb. Qalan 6 quyunun qazılması, işlənməsi və istismara verilməsi müddəti 2026-cı ilə qədər müəyyən edilib.

Xatırladaq ki, ”Şahdəniz” yatağı 1 trilyon kubmetrdən çox qaz və 2 milyard barel kondensat ehtiyatı ilə dünyanın ən böyük yataqlarından biridir. Onun işlənməsi SOCAR, ”Cənub Qaz Dəhlizi” QSC və BP-nin rəhbərlik etdiyi 4 beynəlxalq şirkət arasında dövlət-özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir.

# “Ermənistan XİN Qarabağdakı ermənilərin sayı barədə yalan məlumatlar yayır”

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Xankəndi-Laçın yolunun ”bloklanması” və Azərbaycanın Qarabağ bölgəsindəki ermənilərin sayı barədə yalan məlumatlar yaymağa davam edir. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri özünün tviter hesabında bildirib. O qeyd edib ki, sosial şəbəkələrdə yayılan çoxsaylı videogörüntülərdə avtomobillərin Laçın yolundan sərbəst keçdiyi aydın görünür.



# Sayt və qəzetlərə yardım ayrıldı







Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən onlayn (veb-saytlara) və çap media subyektlərinə dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri açıqlanıb. Bu barədə SİA-ya Medianın İnkişafı Agentliyindən məlumat verilib.

# Avropa Parlamentində korrupsiya qalmaqalı: erməni izi görünməyə başladı!



### Kaspar Karapetyan kimdir?

Bu günlərdə Avropa Parlamentinin bəlkə də tarixinin ən qalmaqallı korrupsiya faktı ortaya çıxıb. Lakin bu məsələdə üzə çıxan digər faktların erməni izini də ifşa etməsi mövzunu daha da aktuallaşdırır. Belə ki, dekabrın 9-da Brüsseldə beş nəfər parlament təmsilçisinin, o cümlədən, qurumun sədr müavini, yunan mənşəli Yeva Keylinin saxlanılmasının ardınca məlum oldu ki, korrupsiya ittihamları yalnız ortada olan faktlarla - məsələn, Qətərdən olan nüfuzlu siyasi-ictimai şəxslərdən rüşvətlərin alınması ilə başa çatmır. Daha dəqiq desək, Belçika prokurorluğu dekabrın 19-da daha bir işin izinə düşüb. Ukraynadan olan diplomatik mənbənin bildirdiyinə görə, prokurorluq avroparlament deputatlarının daha iki ölkə təmsilçilərindən rüşvət aldıqlarını müəyyən edib.



### "Brussels Morning" və Fransanın i "Le Monde" nəşrləri məlumat veriblər ki, korrupsiya qalmaqalında Mərakeşin də rəsmi şəxslərinin adları hallanır

SİA xəbər verir ki, sözügedən məsələ ilə bağlı "Azfront" - rusdilli informasiya və məlumat şəbəkəsi xəbər yayıb. O cümlədən, dekabrın 16-17-də Belçikanın "Brussels Morning" və Fransanın i "Le Monde" nəşrləri məlumat veriblər ki, korrupsiya qalmaqalında Mərakeşin də rəsmi şəxslərinin adları hallanır. Ukraynalı məlumatlı mənbənin bildirdiyinə görə, çox yəqin ki, yaxın günlərdə digər iki dövlətin də adları açıqlanacaq.



Bu arada, Yunanıstanın "Mega TV" teleşirkətinin əldə etdiyi informasiyalarına görə, aparılan istintaq araşdırmaları zamanı Avropa Parlamentinin nə az, nə də çox - düz 60 deputatının rüşvət alma ittihamına məruz qalacağı gözlənilir!



Ukraynalı diplomatik mənbənin sözlərinə görə, həbs edilmiş Kayli bu məsələlərdə "kassir" rolunu oynayıb. O, rüşvəti aldıqdan sonra əldə edilən vəsaitləri digər avroparlamentarilər, onların məsləhətçiləri və köməkçiləri arasında bölüşdürüb. Bütün bunlar öz yerində. Lakin ən maraqlı məqam Keylinin ermənipərəstlik aktivliyi ilə seçilir və bu məsələdə də şübhələr artmağa başlayıb.

### Belə bir sual yaranır: bəs həmin şübhələrin yaranmasına səbəblər daha hansı ehtimallara söykənir?

Məsələ ondadır ki, Keylinin həbsinə qədər o Avropa Parlamentinin Avropa İttifaqı-Ermənistan dostluq qrupunun üzvü olub. Həmin qrup isə Ədalət və Demokratiya uğrunda Ümumavropa Erməni Federasiyası (EAFJD) təşkilatı ilə sıx bağlıdır. Bu təşkilatın prezidenti isə ermənilərin "almaz imperatoru" adlandırdıqları milyarder Kaspar Karapetyandır.

Beləliklə, mənbə məlumat verir ki, Karapetyan 2019-cu ilin 26 may tarixində Keyli ilə "işgüzar" əlaqələrinin olduğunu istisna etməyən çıxış səsləndirib. Onu da xatırladaq ki, Keyli kimi, Karapetyan da Yunanıstan mənşəlidir. O özünün "Facebook" səhifəsində Keyli ilə çəkdirdiyi birgə fotosunu paylaşıb. Həmin vaxtlarda isə Keyli Avropa Parlamentinə namizəd olub. Seçildikdən sonra isə onun Kaspar Karapetyanla əlaqələri daha da artmağa başlayıb.

### Karapetyan on illər boyunca Avropa Parlamentinin bir çox deputatlarının yalnız Ermənistana deyil, eləcə də Qarabağa qanunsuz səfərlərini təşkil edib!

2021-ci ilin 19 noyabr tarixində isə Keyli avrodeputatların qrup halında imzaladıqları və "Azərbaycanın Ermənistana qarşı aqressiya törətməsi" ittihamını əks etdirən bəyanatının yayılmasının əsas təşəbbüskarı kimi tanınıb.

**(Fotoda: Kaspar Karapetyan və Yeva Keyli)**



2022-ci ilin 4 may tarixində isə Keyli Brüsseldə Ermənistan parlamentinin radikal "Daşnaksyutun" partiyasının deputatı Xaçaturyanla görüşüb. Görüşdən əvvəl isə Yeva Keylinin məhz Kaspar Karapetyanla görüşü baş tutub. Karapetyan isə, eyni zamanda, daşnakçı deputat Xaçaturyanın Brüsselə səfərini maliyyələşdirib. Lakin bu da son deyil..!

Məlum olub ki, EAFJD təşkilatının rəhbəri, milyarder Karapetyan on illər boyunca Avropa Parlamentinin bir çox deputatlarının yalnız Ermənistana deyil, eləcə də Qarabağa qanunsuz səfərlərini təşkil edib. Onun xüsusilə, "Daşnaksyutun" partiyasının təmsilçiləri ilə mütəmadi görüşlər keçirməsi, habelə onların radikal iş üslublarını dəstəkləyib. Karapetyanın əsasən adıçəkilən partiyanın beynəlxalq əlaqələr katibliyinin rəhbəri Manoyanla sıx əlaqələri mövcud olub.

Nəticədə isə bu fakt artıq Keyli-Karapetyan birliyinin korrupsiya əməllərini daha çox açığa çıxarmış olur. Daha doğrusu isə, Keylinin Avropa Parlamentindəki statusundan sui-istifadə edərək daha böyük korrupsiyalara əl atması get-gedə daha çox açığa çıxmış olur və burada erməni izinin də mövcudluğu artıq özü-özlüyündə hər şeyi gün işığına çıxarır.

*Rövşən RƏSULOV*



# Azərbaycan Avropaya enerji körpüsü salmağa başlayır

## İLHAM ƏLİYEV: "Azərbaycan ilə Avropa arasında növbəti bir enerji körpüsünü qurmaqdayıq"

Bu gün Azərbaycanını coğrafi yerləşməsi elədir ki, ölkəmiz Şərqlə Qərb arasında təbii körpü rolunu oynayır. Müstəqillik dövründə, xüsusilə də son 19 ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın böyük həcmlərdə investisiya qoyuluşu hesabına yaratmağa nail olduğu müasir yol-nəqliyyat infrastrukturu respublikamızın Şərqlə Qərb arasında tranzit daşımaları üçün önəmini əhəmiyyətli dərəcədə artırıb. Hazırda ölkəmiz Avrasiyada çox mühüm nəqliyyat-logistika habı qismində çıxış edir.Bir sözlə, həyata keçirilən uğurlu enerji siyasəti Azərbaycanın etibarlı tərəfdaş olduğunu ortaya qoyur. Son zamanlar baş verən hadisələr onu deməyə əsas verir ki, Avropanın enerji siyasətində ən mühüm məsələ etibarlı tərəfdaşın olmasıdır. Hazırda Avropanın etibar etdiyi və enerji böhranında Azərbaycana verdiyi dəyər həyata keçirilən uğurlu siyasətlə bağlıdır. Müstəqilliyimizin ilk illərində Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə bir sıra beynəlxalq layihələrin reallaşdırılması və bu layihələrin şaxələndirilməsində perspektivə hesablanmış addımlar idi. Elə bu günlərdə - dekabrın 17-də Rumıniyanını paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması da bir daha deyilənlərin göstəricisidir. Dövlətimizin başçısı Sazişin imzalanma mərasimində də qeyd edib ki, bu sənəd yaşıl enerji sahəsində təhlükəsizliyinin yaradılması üçün olduqca mühüm sazişdir. Azərbaycanın enerji coğrafiyasını o qədər böyüdür ki, Avropanın da enerji təhlükəsizliyində pay sahiblərindən birinə çevrilmək istiqamətində irəliləyir. Həmçinin, Azərbaycan inanılmış tərəfdaş kimi ən strateji müqavilələrdə özünü təsdiqləyib. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün Azərbaycan Avropaya digər enerji körpüsünü salmağa başlayır. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır.

### BİZ BU GÜN AZƏRBAYCAN İLƏ AVROPA ARASINDA NÖVBƏTİ BİR ENERJİ KÖRPÜSÜNÜ QURMAQDAYIQ

Bəli, bu gün Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində iştirakı günügündən artmaqdadır. Xüsusilə də, Azərbaycan işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial inkişafını beynəlxalq layihələr çərçivəsində uğurla həyata keçirməkdədir. Bu istiqamətdə görülən işlər çərçivəsində xüsusi diqqət çəkən məqam işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsidir. Bu prosesin beynəlxalq əlaqələr istiqamətində aparılması isə Azərbaycan hökumətinin prioritet məsələsidir. Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclas da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı keçirilən plenar iclasda çıxışı zamanı bildirib ki, biz bu gün Azərbaycan ilə Avropa arasında növbəti bir enerji körpüsünü qurmaqdayıq: "Bizim ölkəmiz elektrik enerjisinin Avropaya mühüm təchizatçısına çevrilməkdədir", - deyən dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji sahəsində potensialının böyük olduğunu vurğulayıb.

### YAŞIL ENERJİ İLƏ BAĞLI SAZİŞ AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ BİZİM DAHA BİR TÖHFƏMİZ OLACAQ

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yaşıl enerji potensialının istehsalı və ixracı istiqamətində böyük layihələr icra olunur. Dövlətimizin başçısı "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı keçirilən plenar iclasdakı çıxışında deyib ki, yaşıl enerji ilə bağlı saziş avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə bizim daha bir töhfəmiz olacaq.Prezident İlham Əliyev onu da bildirib ki, bu sənəd yaşıl enerji təhlükəsizliyinin yaradılması üçün olduqca mühüm sazişdir: "Keçən il Azərbaycanın Avropa bazarlarına təbii qaz ixracı 8,2 milyard kubmetr, bu il isə 11,3 milyard kubmetr olub. Gələn il isə ən azı 11,6 milyard kubmetr qaz ixracı gözlənilir".Gələn il Azərbaycandan təbii qazın ixracının ümumilikdə təxminən 24 milyard kubmetr olacağını vurğulayan dövlətimizin başçısı xatırladıb ki, bu rəqəm 2021-ci ildə 19 milyard kubmetr olub.

Belə ki, ölkəmizin yaşıl enerji potensialı quru ərazilərində 27 qiqavat, dənizdə isə 157 qiqavat dəyərləndirilir. Artıq qlobal şirkətlərlə bu enerji potensialının istehsal olunması istiqamətində layihələr imzalanır və reallaşdırılır. Beləliklə, 2027-ci ilə qədər 4 qiqavat külək və günəş enerjisi istehsal olunacaq. 2037-ci ildə isə əlavə 7 qiqavat yaşıl enerji gücü dövriyyəyə qoşulacaq. İstehsal olunacaq yaşıl enerjinin 80 faizinin ixrac edilməsi nəzərdə tutulur."Dünən SOCAR və "Romgaz" Azərbaycandan Rumıniyaya qaz tədarükünə dair saziş imzaladı. Gələn il yanvarın 1-dən etibarən Azərbaycan Avropa bazarının qaz təchizatının coğrafiyasını daha da genişləndirəcək",-deyən dövlət başçısı bağlanılın sazişin hər iki tərəf üçün mənfəətli olduğunu vurğulayıb: "Çünki Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsinə, Azərbaycanın isə özünün nəhəng enerji mənbələri üçün etibarlı bazara ehtiyacı var".

### AZƏRBAYCANDAN İXRACIN BİRİNCİ MƏRHƏLƏSİNDƏ ƏN AZI 3 QİQAVATLIQ ƏLAVƏ ÖTÜRMƏ GÜCÜ YARADILACAQ

"Azərbaycandan ixracın birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaq",- deyən dövlət başçısı bildirib ki, təkcə bir qlobal enerji şirkətinin Azərbaycanda 10 qiqavatlıq yaşıl enerjinin istehsalına investisiya qoymağı planlaşdırır: "İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycanın ixracın birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaq".

### MƏQSƏDLƏRİMİZƏ NAİL OLMAQ ÜÇÜN SƏMƏRƏLİ SURƏTDƏ ÇALIŞMALIYIQ

"Məqsədlərimizə nail olmaq üçün səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidir".Bu fikri Prezident İlham Əliyev dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı keçirilən plenar iclasdakı çıxışında deyib. Bir sözlə, Buxarest sazişi - dünyada enerji böhranının qarşısını almaq istiqamətində addımdır. Çünki bu gün Azərbaycan hər bir müqavilə, sazişə sadiqliyi və məsuliyyətli yanaşması ilə dünyada nümunəvi dövlətə çevrilib. Və bu Saziş tək Azərbaycan üçün yox, digər Avropa dövlətləri üçün də əhəmiyyətlidir. Hazırda dünyada yaşanan enerji böhranın qarşısını almaq istiqamətində atılan növbəti vacib addımlardan biridir. Və bu gün Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ərsəyə gətirdiyimiz beynəlxalq dəhlizlər bu gün ən səmərəli və vacib layihələrə çevrilir. Vaxtilə Cənub Qaz Dəhlizi layihəsinin çəkilməsini gündəmə gətirəndə, Avropa İttifaqı bu layihəyə şübhə ilə baxırdı. Amma bu gün Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Cənub Qaz Dəhlizi alternativsiz yeganə ümid yerinə çevrilib.Bir sözlə, Prezident İlham Əliyevin iştirakı və təşəbbüsü ilə Buxarestdə imzalanmış bu yeni Saziş də böyük perspektivlər vəd edir və bu layihələr dostlarımızın sayını artırmaqla siyasi gücümüzə yeni güc əlavə edir, təhlükəsizliyimizin qarantına çevrilir, iqtisadi gücümüzü artırır, həm də dost ölkələrə böyük gəlirlər qazandırır. Dövlət başçımızın dediyi kimi: "Bu gün imzalanacaq yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır".

***RƏFİQƏ KAMALQIZI***

# Müəllim-şagird münasibətlərinə CƏMİYYƏTİN BAXIŞI

Təhsil müəssisələrində müəllim uşaqların psixi və somatik sağlamlığına təsir göstərən əsas fiqurlardan birincisidir. Təhsildə sağlam mühitin yaradılmasında müəllimin həm dərs zamanı, həm də dərsdən əlavə fəaliyyət zamanı şagirdləri ilə konstruktiv qarşılıqlı əlaqələr qurmaq bacarığı əsas rol oynayır. Təhsil müəssisələrində müəllim tərəfindən edilən psixoloji zorakılıq faktlarının müxtəlif formalarına rast gəlinir: şagirdə hədsiz tələblər qoymaq, yaşa uyğun olmayan münasibət göstərmək, şagirdi təhqir etmək və s. Bəs görək şəhər sakinləri müəllim və şagird münasibətləri barəsində hansı fikirdədir. SİA mövzu ilə əlaqədar şəhər sakinləri arasında sorğu keçirib.



**Şəhər sakini Sehranə Cəfərova:** ”Uşaq sakit olduqdan, dərslərini oxuduqdan sonra müəllim uşağa heç bir şiddət tətbiq edə bilməz. Ona görə uşaqlardan



çox şey asılıdır. Eyni zamanda, valideynlər də anlayışla qarşılamalıdır. İndiki zəmanədə valideynlər belə çox çətin xarakterdədir. Valideyn özü də əsəbləşəndə övladını danlaya və ya döyə bilir. O cümlədən, müəllim də insan olduğu üçün qismən bu kimi hallar baş verə bilir. Uşaq evin güzgüsüdür. Valideynlərin verdiyi tərbiyədən çox şey asılıdır”.

SORĞU

**Şəhər sakini İdris Qocayev:** ”Düşünürəm ki, müəllimlərin uşağı təhqir etməsi və ya ona qarşı şiddət tətbiq etməsi doğru deyil. İndi sosial şəbəkələrdə paylaşılan videolardan da müəllimlərin şagirdlərlə münasibətini açıq-aşkar görürük. Mən müəllimlərimdən heç vaxt belə rəftar görməmişəm. Ona görə də bu cür münasibəti qəbul edə bilmirəm”.



**Şəhər sakini Əminə Mustafayeva:** ”İndiki dövrdə müəllimlər hər hərəkətinə görə qınaq obyektinə çevrilir. Uşaq müəllimdən qorxmalıdır. Müəllim uşağı



danlaya da bilər, bu problem halına gəlməməlidir. Məktəbdə olan məktəbdə qalmalıdır. Valideynlərin hər şeyə görə məktəbə getməyinə ehtiyac yoxdur”.

**Şəhər sakini Fuad Hüseynov:**



”Mən özüm də məktəbli olmuşam. Yeri gəlib müəllim məni döyüb, yeri gəlib acıqlanıb. Valideynlərimiz heç bundan xəbər tutmayıblar. İndi valideynlər həmin dəqiqə müəllimi topa tuturlar. Valideynlər məktəbə bilik öyrənməklə yanaşı, uşaqlarını müəllimdən tərbiyə alsın deyə göndərirlər. Sonra isə müəllimin verdiyi tərbiyədən narazılıq edirlər”.

**Şəhər sakini Cəmilə Əmikişiyeva:** ”Müəllimin uşağa heç bir halda əl qaldırmağa haqqı yoxdur. Uşaqlar müəllimdən qorxmamalıdır, ona hörmət etməlidir. Bir valideyn olaraq müəllimlərin belə davranışlarla uşaqların psixologiyasına təsir etməsi düzgün deyil”.

**Şəhər sakini Fərid Əliyev:** ”Mən özüm də müəlliməm. Amma əksər müəllimlərin dərskeçmə metodunu düzgün hesab etmirəm. Müəllimlər şiddətə əl atmamalıdır. Çünki bu halda uşaqların dərsi öyrənmək üçün motiva-



siyası qalmır. Onları həvəsləndirmək üçün müxtəlif metodlar tətbiq edilməlidir. Müxtəlif yarışlar, hədiyyələrlə dərsi maraqlı etmək olar”.

***Ləman Əlizadə***

## Dəhşətli qəzalarda günahkar kimdir?

“Yol-nəqliyyat hadisələrində ölüm və ya xəsarət halları varsa, burada təqsirkarı və zərər çəkəni ərazi aidiyyatı üzrə prosesual araşdırma ilə müəyyənləşdirirlər. Yəni, ibtidai istintaq araşdırması aparılır. Təqsirkar sürücününün əməli yol-nəqliyyat hadisələrində az ağır, ağır və ölüm faktları ilə müəyyən olunubsa bu İnzibati Xətalar Məcəlləsi ilə yox, birbaşa Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 263-cü maddəsi ilə məsələyə hüquqi qiymət tələb edir”. Bu sözləri SİA-ya açıqlamasında Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru polis mayoru Araz Əsgərli deyib.



Onun sözlərinə görə, digər hallarda isə xəsarətin dərəcəsi müəyyən olunmayanda baş vermiş yol-hərəkəti qaydası pozuntusuna hüquqi qiymət verilir: ”Əgər, xəsarətin dərəcəsi yüngüldürsə, burada da məhkəmə məsuliyyəti yaranır və yenə də İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq qiymətləndirilir”.

Araz Əsgərli sözlərinə belə davam edib: ”Təbii ki, bunların hər biri məhkəmə-tibb ekspertinin verdiyi nəticəyə uyğun olaraq müəyyən edilir. Təqsirkarı müəyyən etməyə gəldikdə isə yol-nəqliyyat hadisəsi cinayət tərkibli əməle çevrildikdə buna qiymət vermək ibtidai istintaq araşdırmasının nəticəsinə uyğun olaraq sübutlar qiymətləndirilir və ibtidai istintaq başa çatır. İbtidai istintaq prosesini polis həyata keçirir, polisin istintaq və tədqiqat sturukturu da araşdırma aparır. Prokuror nəzarəti isə iş məhkəməyə təqdim olunana qədər davam edir. Sonda isə hakim təqsirkarın müəyyən olunmasında yekun qərarı qəbul edir.

Hadisələrin ağır fəsadlarla və ya faciələrlə yekunlaşmaması üçün hər bir hərəkət iştirakçısının nəzərdə tutulan yol hərəkəti qaydalarına ciddi məsuliyyət hissi ilə yanaşması olduqca vacibdir. Bir daha hər kəsin qaydalara daim məsuliyyətlə yanaşmağı, həyat və sağlamlığını təhlükə qarşısında qoymamağı xahiş edirik!”.

***Ayşən Vəli***

## “İtkilər qaçılmaz olacaq”

“Rusiya Ukrayna arasında davam edən qanlı toqquşmalar heç də nikbin proqnoz verməyə əsas vermir. Çünki müharibənin dayanacağını zənn etmək sadəlövhlük olardı. Hazırda müharibənin yeni mərhələsi başlayır. Çünki tərəflər arasında toqquşmalar daha faciəli şəkil alır. Hərbi əməliyyatlar daha da genişlənir. Rusiyanın Ukraynanın müxtəlif məntəqələrini durmadan raket atəşinə tutması və böyük dağıntıların, insan tələfatının olması heç kəs üçün bir sirr deyil”.



Bu sözləri SİA-ya açıqlamasında politoloq Sahil Kərimli bildirib. Onun sözlərinə görə, xüsusilə vurğulamaq lazımdır ki, bu günlərdə Rusiya Prezidenti Vladimir Putin Belarusiyaya səfər etdi və Belarusiyanın prezidenti ilə görüşdü: ”Onlar burada birgə bəyanat səsləndirdilər. Hansı ki, bu bəyanat artıq müharibənin miqyasının genişlənməsini deməyə əsas verir. Bütün bunları artıq Belarusiyanın də müharibəyə sürüklənməsi prosesinin başlanğıcı kimi dəyərləndirmək olar. Çünki hər iki tərəf, yəni həm Rusiya, həm də Belarusiya liderləri çox sərt bəyanatlar səsləndirdilər. Eyni zamanda Avropanın da, Qərbin də Ukraynaya hərbi və maddi dəstəyi var. Bütün dünya görür ki, bu dəstək get-gedə daha da böyüyür, güclənir. Belə olduğu halda Qərb və Rusiya qarşıdurması fonunda müharibənin daha da intensiv hal alacağı, hərbi əməliyyatların böyüyəcəyi qaçılmazdır. Qeyd etmək lazımdır ki, Ukrayna prezidenti də öz növbəsində çox sərt bəyanatlar səsləndirir. Tərəflərin hər hansısa barışağa gəlməsindən daha çox, biri-birlərinə qarşı sərt bəyanatlar səsləndirməsinin şahidi oluruq. Belə olduğu halda müharibənin tezliklə başa çatması barədə heç nə demək olmaz. Çünki görünən odur ki, müharibə bu qış da davam edəcək. Qışın başlanması da Ukrayna üçün müəyyən çətinliklərə səbəb olur. Rusiya ordusu özünə əmindir ki, soyuq, şaxta havalarda daha böyük irəliləyişlər əldə edə bilərlər. Bütün bunlar göstərir ki, bu qış Ukrayna üçün yenə çətin keçəcək. Təəssüf ki, hərbi əməliyyatlar davam etdiyi müddət ərzində də böyük itkilərlə üzləşmək qaçılmaz olacaq”.

***Səbinə Hüseynli***

## “İxraclar ölkəmizin siyasi çəkisinin artmasına səbəb olur”

***POLİTOLOQ DANIŞDI***



“Dekabrın 17-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin Rumıniyanın paytaxtı Buxarestə səfəri baş tutdu. Burada Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətlərinin arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalandı. Azərbaycan artıq Avropanın etibarlı tərəfdaşıdır və Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov bildirib.

Onun sözlərinə görə, biz əsrin müqaviləsi bağlandıqdan sonra Bakı-Tbilisi-Ceyhan kəməri ilə dünya bazarına neft ixrac edirdik: ”Ancaq Azərbaycanın son illərdə artan təbii qazını da artıq Avropaya ixrac edirik. Xüsusilə Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Avropa ölkələri Rusiyanın iqtisadiyyatına zərbə vurmaq məqsədi ilə onların qaz və neftindən imtina etməsindən sonra Avropanın qaz və neftə olan tələbatı daha da artıb. Bu tələbatı ödəmək üçün Avropa İttifaqının rəhbərliyi Azərbaycanla müqavilə bağladı. Avropa komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq sahəsində anlaşma memorondumu imzalandı. Bundan sonra da Serbiyada da bu barədə müqavilə bağlandı. İndi isə yenidən Buxarestdə eyni mövzu ilə əlaqədar olaraq dövlətlər arasında saziş imzalandı.

Biz öz ixrac etdiyimiz qazı Avropaya nəql edirik. Bu il Avropaya təxminən 11.3 milyard kub metr qaz ixrac etdik. Gələn il isə bu rəqəm artaraq 11.6 milyard kub metr təşkil edəcək. Ümumiyyətlə bizim 2021-ci ildə 19 milyard kub metr qaz ixrac edirdik. Qarşıdan gələn 2023-cü ildə bu rəqəm 24 milyard kub metrə çatdırılacaq. Biz Avropanın qaz təchizatına böyük töhfələr verməyi öhdəlik olaraq götürmüşük. Hazırda da neft-qaz sahəsində ölkəmizdə çox böyük inkişaf özünü göstərir və böyük investisiyalar yatırılır. Buna görə də Azərbaycan dövləti Avropa üçün enerji təhlükəsizliyinin təmin olunması məsələsində çox böyük rola sahibdir. Bu isə ölkəmizin siyasi çəkisinin artmasına səbəb olur”.

***Səbinə Hüseynli***

# ŞUŞA: türk dünyasının mədəniyyət paytaxtı, düşmənin vay taxtı!

**"Şuşa ili" olan 2022-ci ilin tarixin arxivinə yollanmasına sayılı günlər qaldığı və qarşıdan gələn yeni ildə gözəl Şuşamızın türk dünyasının mədəniyyət paytaxtı olacağı fonunda qürur hissi keçirir, yeni ili Şuşanın bu böyük missiyanı həyata keçirməsinə tamaşa etmək üçün səbrsizliklə gözləyirik. Bəli, yaranışı mədəniyyət, incəsənət üzərində qurulan bu gözəl yurdu qarşıda türk dünyasının mədəniyyət paytaxtı kimi 365 gün gözləyir. 28 il işğal altında qalan, azadlığa qovuşmağı hər gün həsrətlə gözləyərək 2020-ci ilin 8 noyabrında bu böyük arzusuna çatan Şuşa bütün varlığı ilə yeni missiyaya layiq bir məkandır. Onun mədəni tarixi, coğrafiyası-hər daşı-qayası, dağı-düzü, bulaqları, ümumilikdə bənzərsiz təbiəti o qədər fərqlidir ki, təbii ki, bu fərqliliyin fövqündə türk dünyası Şuşa kimi gözəlliklər diyarını mədəniyyətinə paytaxt edəcəkdi.**

## Azərbaycanın Zəfər rəmzi

Qarabağın baş tacı, gözəllər gözəli Şuşa, onun 28 il boynubükük qalan xarıbülbülü 2020-ci ildə Azərbaycanın Zəfər rəmzinə çevrildi. Şuşa qələbəsi ilə 44 günlük müharibəni tamamilə uduzduğunu dərk edən düşmən noyabrın 10-da ağ bayraq qaldırıb təslim olduğunu bəyan etdi. Və üçtərəfli-Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan 10 noyabr Bəyannaməsi ilə müharibənin bitdiyi elan olundu.

2020-ci il sentyabrın 27-də başlayıb 44 gün davam edən İkinci Vətən Müharibəsi hər gün əzəli torpaqlarımızın birinin işğaldan azad olunması, 8 noyabrda isə Şuşa Zəfəri ilə tarixin səhifələrinə həkk olundu. Şuşanın azad olunmasını xalqımız böyük sevinclə qarşıladı. Çünki Şuşa azaddırsa, deməli, Qarabağ azaddır. Ali Baş Komandan dəmir yumruğunu düşmənin başına endirməklə Qarabağa, onun baş tacı Şuşaya Zəfər gətirdi. Bu gözəl şəhərin azadlıq xəbərini də 44 gündə bütün qələbə müjdələri kimi, dövlətimizin başçısından aldıq. Prezident cənab İlham Əliyevin Şuşa Zəfəri ilə bağlı Bakıda Şəhidlər Xiyabanından xalqa müraciəti 30 il torpaq həsrəti yaşayan insanlara acılarını untdurdu: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.



Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

## Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaqdı

Bəli, 8 noyabrda Şuşa işğaldan azad edilərkən ölkəmizdə ona görə hər kəsin sevincinin həddi-hüdudu yox idi ki, dövlətimizin başçısının dediyi kimi, Şuşasız bizim qələbəmiz tam olmayacaqdı. Bu sözlər Şuşanın qələbəsi fonunda belə bir təəssürat yaradırdı ki, artıq bütün Qarabağ azaddır. Çünki Şuşa Qarabağın açarı hesab edilirdi.







Bu barədə Prezident cənab İlham Əliyev qələbənin ikinci ildönümü münasibətilə Şuşada keçirilən tədbirdə dəyərli fikirlər söyləmişdir: Alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər.

Şuşa həqiqətən alınmaz qala sayılırdı. Şuşanı yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz azad edəndə onlar ölümə gedirdilər. Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaq.

Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən, - mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, - hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Çünki "Zəfər yolu" adlandırdığımız yol cəmi iki ilə yaxındır ki çəkilib. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi iki il keçib və iki il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki, biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də olur, geriyə addımlar da olur və gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi. Sentyabrın 27-də - müharibənin birinci günündə altı kənd azad olunanda Azərbaycan xalqı daha da inandı ki, biz istədiyimizə nail olacağıq, tarixi missiyamızı yerinə yetirəcəyik.

Şükürlər olsun ki, biz dövlət-xalq birliyini yarada bildik. Ali Baş Komandanımızın və milli ordumuzun sayəsində Zəfərimizi qazana bildik. Şükürlər olsun ki, işğal sözünü torpaqlarımızın üzərindən silə bildik. Onlara azadlığı bəxş edə bildik. Şükürlər olsun ki, şərəf və ləyaqətimizi xilas edə bildik.

## Mədəniyyət beşiyi Şuşa

1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialını və xalq tətbiqi sənəti muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir.

Dövlətimizin başçısı cənab İlham Əliyev Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında bu barədə deyirdi: Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək... Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir.

## Yenidən doğulan xarıbülbül

Şuşanın qeyri-adi çiçəyi, həm də rəmzi olan xarıbülbül 28 il nə yaz bildi, nə bahar. Nə torpaqdan baş qaldırdı, nə gün gördü, nə günəş. Nə çiçək açdı, nə də ətir saçdı. Bu gül tək gül olaraq yox, Şuşanın rəmzi olaraq da özünü düşməndən beləcə qorudu. Nə yaxşı da ki, qorudu. Yoxsa musiqilərimizi,



musiqi alətlərimizi, xalçalarımızı, milli mətbəximizin bir çox nümunələrini öz adlarına çıxan düşmən xarıbülbülü də çoxdan mənimsəmiş, bu gülü öz əlləri ilə Şuşaya əkdiklərini iddia edərdilər. Çünki oğurluq, hazırın yiyəsi olmaq onların xislətinə yazılanlardandır.

2020-ci ildə xarıbülbül Şuşaya gələn Zəfərlə yenidən doğuldu. Bir payız günü torpaqdan baş qaldırıb bahara boylandı. Var olduğunu, yaşadığını "bəyan" etdi. Çünki o, doğmasının addımlarını duymuşdu. Şəhidinin qanını 28 ilin susuzu kimi ciyərlərinə çəkərək oyanmışdı. Ta artıq gizlidən aşkara çıxmanın vaxtı çatdığını duymuşdu.

Şuşanın azadlığından sonra Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının keçirilməsi düşmənin bağrına dağ boyda dağ çəkdi. Azərbaycan musiqisinin heyrətamiz səsi dağlarına-daşlarına yayıldıqca Şuşa oyandı, təşnəsi olduğu bu səslə sanki özünə qayıtdı. Bu heyrətamiz musiqi xarıbülbülün də torpaqdan boy atmasına, şaxələnməsinə, sinəsini günəşə verib qürrələnməsinə səbəb oldu. Xarıbülbül Şuşa Zəfəri ilə yenidən doğulduğunu nə qədər hiss etmişdisə, festivalın keçirilməsi ilə var olduğunu, ta bundan sonra daim olacağına əmin oldu.

Daha sonra Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı, "Vaqif Poeziya Günləri" nin keçirilməsi, Natəvanın bulağının bərpası, Şuşaya yol çəkilməsi, elektrik enerjisi ilə təminatının yaxılaşdırılması və digər tədbirlərin hər biri yaxınlıqdakı düşmənin göz dağına çevrildikcə xarıbülbülün üzü güldü. 28 ilin ağrı-acısı canından çıxdı.

2020-ci ildən bu günədək artıq üç bahar yaşayan xarıbülbül bir rəmz kimi sinələrdə, ürəklərin başında, evlərimizin, şəhər, rayon, kəndlərimizin, iş yerlərimizin ən yuxarı başında yer aldıqca əmin oldu ki, ta bir də düşmən onun sinəsinə dağ çəkə bilməz. Çünki o, bu Zəfərlə yenidən, həm də əbədiyyən doğulmuşdur.

## Mədəniyyətin paytaxtı, düşmənin vay taxtı

Bu il mart ayının 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib. TÜRKSOY-un üzv-şəhərlərindən hər il birinin illik olaraq Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi barədə qərar 2010-cu ildə türkdilli ölkə başçılarının X sammitində qəbul olunmuşdur.

Qeyd edək ki, TÜRKSOY-un təşəbbüsü ilə türkdilli dövlət, yaxud regionların şəhərlərindən hər il biri Türk dünyasının mədəniyyət mərkəzi seçilir və Türk dünyasının mədəniyyət paytaxtı seçilmiş şəhərlərdə il ərzində türk dünyasının mədəni tədbirləri keçirilir.

Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 dekabr 2022-ci il tarixddə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Çox böyük qürur hissidir ki, Şuşa 28 il işğal altında qalandan sonra azadlığına qovuşmuş və bir neçə gündən sonra həyatımıza qədəm qoyacaq yeni ildə-365 gün türk dünyasında mədəniyyət paytaxtı kimi missiyanı daşıyacaqdır. Bu mədəniyyət beşiyi olan şəhərin türk dünyasına mədəniyyət paytaxtı seçilməsi, sözün həqiqi mənasında, düşmənin özünə vay taxtı qurması deməkdir. Çünki Şuşanın mədəniyyət paytaxtı olması bizim qürurumuz, düşməninsə ölümüdür.

Şuşa bu il dünyanın hər yerindən gələn azərbaycanlıları-soydaşlarımızı qoynuna aldı. Onları tarixinin seyrinə çıxardı. Daha sonra Dünya Azərbaycanlılarının V Qurultayına ev sahibliyi etdi. Düşmən üçün bundan ağır günlər ola bilərdimi? Sinəsində baş tutan bu tədbirlərin hər biri məğlub düşmənin yeni-yeni məğlubiyyətləridir.

2023-cü ildə burada keçiriləcək bir-birindən maraqlı tədbirlər, bu mədəniyyət paytaxtının qarşıdakı novrağı hələ düşmənin bağrını necə-necə dağlar çəkəcəkdir. Qoy çəksin, dağlanmalı sinələr dağ-dağ olsun. Çünki bu sinənin altında döyünən ürəklərdə mərhəmətdən əsər-əlamət yoxdur. O ürəklər işğal etmək, dağıtmaq, başqasının olanına göz dikməkdən yanadır. Lakin daha susub o ürəklər. Çünki Azərbaycanın böyük Zəfəri qarşısında yalnız susmağı bacarır.

Əziz Şuşa. Sənə bu cür dəyərlər çox yaraşır. Ey Qarabağın baş tacı, bundan sonra ta sən hər zaman belə dəyərlərlə yaşayacaqsan. Çünki bu gün dünyanın bəhs etdiyi Azərbaycanın bir yurdusan. Çünki sənin arxanda Ali Baş Komandanımız və Milli Ordumuz dayanır. Nə qədər ki, Azərbaycan var, sənin hər zaman üzün güləcək, Şuşa. Çünki bütün torpaqlarımız kimi, sən də qalib ölkənin qoruması altındadır.

***Mətanət Məmmədova***

# Dünyanın aparıcı otel brendləri paytaxtımızdadır

Ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsi, sosial inkişafı bütün sahələrdə nailiyyətlərin əldə olunmasına ciddi zəmin yaradıb. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ardıcıl olaraq, həyatın bütün sahələrinin inkişafı üzrə həyata keçirdiyi islahatlar, qəbul olunmuş dövlət proqramları Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri arasında özünə layiqli yer tutmasına səbəb olub. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft və bununla bağlı imzalanan beynəlxalq sazişlər, müqavilələr dövlətin maliyyə vəsaitinin yüksəlməsinə və bunun müqabilində ölkənin bütövlükdə sferasının dəyişməsinə gətirib çıxarıb. Ölkəmizdə müasir tələblərə cavab verən otellərin inşası da əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur.

## "THE RİTZ-CARLTON BAKU" OTELİNİN MEMARLIĞINDA AZƏRBAYCANA AİD XÜSUSİYYƏTLƏRƏ VƏ MÜASİR TENDENSİYALARIN VƏHDƏTİNƏ XÜSUSİ ÖNƏM VERİLİB

Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasına əhəmiyyətli dərəcədə səbəb olacaq.Görülən işlərin davamı olaraq dekabrın 19-da paytaxtımızda "The Ritz-Carlton Baku" otelinin açılışı oldu. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Hündürlüyü 130 metr olan otel binası 33 mərtəbəlidir və oteldə 190 geniş qonaq otaqları, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılıb. Binanın 14 mərtəbəsi otel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq, yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir. Binada korporativ toplantıların və xüsusi günlərlə bağlı tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. "Şuşa" zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır. Bununla yanaşı, oteldə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin adlarını daşıyan 12 əlavə iclas otağı yaradılıb. Bunlar "Qarabağ", "Ağdam", "Cəbrayıl", "Qubadlı", "Tərtər", "Xocalı", "Füzuli", "Zəngilan", "Kəlbəcər", "Xankəndi", "Xocavənd" və "Laçın" otaqlarıdır. Otelin memarlığında Azərbaycana aid xüsusiyyətlərə - tarixin, incəsənətin, mədəniyyətin və müasir tendensiyaların vəhdətinə xüsusi diqqət yetirilib.

Bu gün əminliklə deyə bilərik ki, aparıcı sənaye sahəsinə çevrilən turizm ölkəmizdə rəqabətə davamlıdır. Bu da, ən birincisi ölkəmizin çox əlverişli iqtisadi-coğrafi mövqeyə malik olması ilə bağlıdır. Bununla yanaşı, qeyd etdiyimiz kimi, bir çox turizm mərkəzlərinin yaradılmasıdır. Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması Azərbaycanda turizmin inkişafına göstərilən diqqətin bir nümunəsidir. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən komplek Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi turizmin inkişafına yol açıb.



## HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR TURİZMİN İNKİŞAFINA TƏKAN VERİR

Görülən işlərlə bərabər, olaraq dövlət başçısı tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində də böyük addımlar atılıb. Azərbaycanda magistral yollar müasir formada yenidən qurulub. Bir çox yaşayış məntəqəsini birləşdirən kəndlərin, yaşayış məntəqələrinin yol infrastrukturun yaxşılaşdırılması ilə bağlı dövlət başçısı son illər ərzində xeyli sayda sərəncamlar imzalayıb ki, bu da əhalinin rahatlığına xidmət edir. Bütün həyata keçirilən bu layihələr vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, yük və sərnişindaşımanın rahatlaşması ilə bərabər bölgələrdə turizmin inkişafına səbəb oldu. Azərbaycanda yeni aeroportların tikilməsi beynəlxalq hesabatlarda Azərbaycan hava xidmətlərinə görə öncül yerlərdən birində qərarlaşır. Xüsusi olaraq onu da qeyd edək ki, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi turizmin inkişafına təkandır.

Bildiyimiz kimi, Koronavirus (COVID-19) pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda tənəzzül müşahidə olundu. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada müşahidə edildi. Pandemiya səbəbindən ölkələr arasında hava, quru və dəniz nəqliyyatı əlaqələrinin qapadılması, turist səfərlərinə tətbiq edilən qadağalar turizm sektoruna mənfi təsir göstərmiş oldu. Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması 2020-ci ilin aprel-dekabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb oldu. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən mehmanxanalarda keçirilmiş gecələmələrin sayı 2019-cu illə müqayisədə 5,4 dəfə azalaraq 416,7 min olub ki, bu da ümumi gecələmələrin 41,7 faizini təşkil etmiş oldu. Artıq canlanma müşahidə olunur. Qeyd edək ki, bu ilin yanvar-noyabr ayları ərzində ölkəyə 1 milyon 458 min 786 şəxs gəlib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu, 111 faiz artım qeydə alınıb. Belə ki, 2021-ci ilin yanvar-noyabrında ölkəyə 692 min 314 nəfər səfər etmişdi. Azərbaycana ən çox əcnəbi isə Rusiya, Türkiyə , İran , Gürcüstan, Hindistan, Pakistan və Səudiyyə Ərəbistanından gəlib.

## DÜNYACA MƏŞHUR OTEL BRENDLƏRİNİN AZƏRBAYCANDA FƏALİYYƏTƏ BAŞLAMASI TURİZMİN İNKİŞAFI BAXIMINDAN MÜHÜM ƏHƏMİYYƏTƏ MALİKDİR

Artıq dünyada olduğu kimi, ölkəmizdə də postpandemiya dövrü yaşanır. Bu isə öz növbəsində turist axınının artması ilə müşayiət olunur. Bu cür müasir və dünyaca məşhur otel brendlərinin Azərbaycanda fəaliyyətə başlaması şübhəsiz ki, postpandemiya dövründə turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmiş oldu. Artıq işğaldan azad olan Azərbaycan torpaqlarında yeni həyat canlanır. Bəşər mədəniyyətinə qarşı vəhşilik törədən ermənilər bu ərazilərimizi talan etmiş, abidələrimizi darmadağın edərək viran qoymuşdular. Bütün məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılmışdır. Bu məkanların hər biri turistlərin marağına səbəb ola biləcək tarixi yerlərdir. Artıq onlardan bir neçəsi təmir və bərpa olunub. Bu ərazilərə gələn şəxslərin - yerli və xarici qonaqların marağındadır.

## "QARABAĞ BÖLGƏSİNİN ÇOX ZƏNGİN, FÜSUNKAR, TƏKRAROLUNMAZ TƏBİƏTİ VƏ TARİXİ ABİDƏLƏRİ VAR, ƏMİNƏM, AZƏRBAYCANIN ƏSAS TURİZM ZONASININ BİRİNƏ ÇEVRİLƏCƏK"

Ermənistanın təcavüzü nəticəsində meşələrimizə də külli miqdarda ziyanlar vurulub. Belə ki, 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Əlbəttə ki, ermənilərin Azərbaycanın flora və faunasına vurduğu ziyan canlı təbiətə böyük bir zərbədir və bu vəhşilikdir. Bir ağacı becərmək, ərsəyə gətirmək onilliklərin hasabına mümkün olduğu halda, bir neçə saat ərzində canlı təbiətə təcavüz edən ermənilər onu məhv edirlər. 1969-cu ildə yaradılan Qubadlı Dövlət Təbiət Yasaqlığının 1988-ci ildə sahəsi 8500 hektar olduğu halda, 2020-ci ildə bu 6923 hektar olub. 1577 hektarı erməni təcavüzkarları dağıdaraq, bunu talan ediblər. Laçın Dövlət Təbiət Yasaqlığı. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı erməni təcavüzünə məruz qalıb. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində azad olunmuş torpaqlarda əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatı və turizm sahəsini qeyd edərək, Qarabağ bölgəsinin çox zəngin turizm potensialı olduğunu bildirib. Mövcud şərait həmin məkanların Azərbaycanın əsas turizm zonalarından birinə çevrilməsinə səbəb olacaq. Kəlbəcərin İstisuyu, Şuşanın, Ağdamın sanatoriyaları, Turşsu yaylaqları, İsa bulağı, Cıdır düzü və onlarla belə məkanlar sağlamlıq turizminin, eləcə də istirahət üçün nəzərdə tutulan istirahətləri keçirilməsi üçün olduqca əlverişlidir. Xatırladaq ki, sovet dövründə Azərbaycana səyahətə gələn turistlərin əsas hissəsi bu cənnət məkanına üz tutublar. 1970-ci illərdən başlayaraq, yaradılmış turist istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib. Öz təbii sərvətləri ilə seçilən torpaqlarımızın səfalı və müalicəvi əhəmiyyət daşıyan yerləri, flora və faunasının başqa bir abhavası var.

Artıq bildiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Qarabağ" hoteli istifadəyə verilib. Qeyd edək ki, 1980-cı ildə inşa edilən hotelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırmış və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdü. Şuşa şəhəri müzəffər Azərbaycan Ordusunun şanlı Zəfəri nəticəsində Ermənistanın işğalından azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlandı və tezliklə açılışı oldu. Bu gün müasir səviyyəyə çatdırılan hoteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Oteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı fəaliyyət göstərir. Hotelə yaxın olan parkın ərazisi abadlaşdırılıb, fəvvarələr qurulub və park işğaldan əvvəlki görkəminə qaytarılıb.Dövlət başçısı çıxışlarının birində vurğuladığı kimi, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək.

***Zümrüd BAYRAMOVA***

# Rusiyanın uğursuzluğu Türkiyə ordusunun İrəvana yolunu açacaq?

## Şarmazanov: "Rusiya Ermənistanın və Qarabağın təhlükəsizliyinin yeganə təminatçısı olaraq qalır"



Ermənistan hakimiyyətinin Laçın dəhlizi ilə bağlı situasiyadakı hərəkətləri və ritorikası onun real maraqlarına ziddir. SİA-nın erməni saytlarından əldə etdiyi məlumata görə, Respublika Partiyasının nümayəndəsi, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov bildirib. Şarmazanov hakim komandanın nümayəndələrinin Ermənistanı Qarabağla birləşdirən yeganə yolun bağlanmasının Rusiya sülhməramlılarının müstəsna səlahiyyətində olması, bəzilərinin isə Rusiyanın Ermənistanı Azərbaycan vasitəsilə İttifaq dövlətinə qoşulmağa məcbur etdiyini iddia etməsi barədə bəyanatını tənqid edib. "Bu gün biz elə bir vəziyyətə düşdük ki, Ermənistan rəhbərliyi Qarabağda nəinki əl-qolunu yudu, onun sakinlərinin təhlükəsizlik problemlərinə göz yumdu, öz müqəddəratını təyinetmə hüququndan danışmaqdan yayındı, həm də birbaşa Rusiya sülhməramlılarını günahlandırdı".

Şarmazanov Paşinyan hakimiyyətini Rusiya tərəfini hərbi münaqişəyə təhrik etmək və Rusiya sülhməramlılarını erməni cəmiyyətinin gözündə nüfuzdan salmaqda ittiham edib. Maraqlıdır ki, sabiq erməni səlahiyyətlisi təəssüflə də olsa hakimiyyətin ikinci vəzifəni müəyyən qədər həll edə bildiyini də etiraf edib. Şarmazanov, Rusiyanın regionda hərbi mövcudluğuna alternativin olmadığını geniş ictimaiyyətə çatdırmağı zəruri hesab edir.

Maraqlıdır ki, Ermənistanın NATO-ya yaxınlaşmasına qarşı çıxan Respublika Partiyasının nümayəndəsi Rusiyanın bu qarşıdurmada güzəştə getməsini, 100 il əvvəl baş verənlərə yol açacağını deyir. Şarmazanov əmindir ki, guya Rusiyanın uğursuzluğu Türkiyə ordusunun İrəvana yolunu açacaq. Vallah, burda deyirlər ey, camaata it hürər, bizə çaqqal.

***Ağasəf Babayev***

# "2022-ci ildə Azərbaycan sürətli iqtisadi inkişafını təmin edib"



"Yola saldığımız 2022-ci il Azərbaycan tarixinə daha bir parlaq səhifə kimi yazıldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti nəticəsində Qarabağ zəfəri siyasi-diplomatik müstəvidə möhkəmləndirildi, ölkəmizin beynəlxalq nüfuzu daha da gücləndirildi və qarşıya qoyulan əsas hədəflərə nail olundu. 2021-ci il, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri ilə yadda qaldı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilana səfəri zamanı Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verildi, yeni layihələrin əsası qoyuldu. Cənab Prezident tərəfindən "Böyük Qayıdış"a dair Dövlət Proqramı təsdiqləndi. Zəngilan rayonunun Ağalı kəndində inşa edilmiş "Ağıllı kənd" istifadəyə verildi və 30 ildən sonra bu ərazinin doğma sakinlərinin öz yurdlarına geridönüşü başlandı. Laçın şəhərinin mərkəzində və ətraf ərazilərdə qanunsuz məskunlaşmış ermənilərin çıxarılması təmin olundu. Şuşa, Kəlbəcər, Ağdam, Füzuli və digər rayonlara onlarla yeni sosial obyektlərin əsası qoyuldu, bir çox infrastrukturların istifadəyə verilməsi mümkünləşdi. Bütün bunlar yola saldığımız ilin əsas əlamətdar hadisələri hesab edilə bilər". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov deyib.

Millət vəkili qeyd edib ki, 2022-ci il iyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"n imzalanması Azərbaycanın Avropa Birliyində əsas qaz təchizatçılarından biri kimi mövqeyini möhkəmləndirdi: "Bir neçə gün əvvəl, dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistanın Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində 3 qardaş ölkə tərəfindən "Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum"u regionda yeni trans-qaz marşrutunun yaradılması da ən mühüm hadisələrdən biridir".

A.Hüseynov sözlərinə davam edərək vurğulayıb ki, 2022-ci ildə Azərbaycan sürətli iqtisadi inkişafını da təmin edib: "2022-ci ilin ötən 11 ayında ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunub, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib. 2022-ci ilin yanvar-noyabr aylarında ölkədə 121,4 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın qeyri neft-qaz sektorunda ÜDM 9,2 faiz yüksəlib. Bu dövrdə adambaşına düşən ÜDM 12 min manatı ötübdür. Bu dövrdə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,5 faiz artaraq 827,9 manat təşkil edib. Eyni zamanda, qeyd edilən dövrdə iqtisadiyyatda muzdla çalışan işçilərin sayı da 27,2 min nəfər artaraq 1 milyon 729,3 min nəfər təşkil edib.

2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 1 milyard 522 milyon manat və yaxud 5,2 faiz çoxdur. Dövlət büdcəsinin xərcləri 33.3 milyard manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 996,2 milyon manat və ya 3,1 faiz çoxdur. Növbəti ilin dövlət büdcəi layihəsində müdafiə və hüquq-mühafizə xərcləri 495,9 milyon manat artrılaraq 8 milyard 63 milyon manata çatdırılmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün 2023-cü ilin dövlət büdcəsinin layihəsində 3 milyard manat maliyyə təminatı yaradılmışdır.Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin büdcəsində 4 milyard 416 milyon manat vəsait proqnozlaşdırılır. Bu, cari ilə nisbətən 687 milyon manat və yaxud 18,4 faiz çoxdur".

***Ləman Əlizadə***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Diqqət Laçın yolunda və Laçın yolunadır!

Beləliklə, Şuşa-Xankəndi yolu üzərində ekofəalların və vətəndaş cəmiyyəti təmsilçilərinin haqlı etiraz aksiyaları vüsət almaqda davam edir. Erməni tərəfi, daha dəqiq desək, separatçı-cinayətkar rejim və onların Ermənistandakı havadarları iddia edirlər ki, guya yolun azərbaycanlılar tərəfindən "bağlanması" Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərdə "humanitar fəlakət" yaradıb və s. Ancaq fakt budur ki, yolun bağlanması və hər iki tərəfdən erməni maşınlarının buraxılmaması məhz RSK-nın təşəbbüsüdür. Belə olmasa idi ekofəallar dəfələrlə (!) Xankəndidən gələn və Xankəndinə gedən humanitar məqsədli avtomobillərin keçməsinə şərait yaratmazdılar. Yəni fakt budur ki, Bakı məlum tələbini qüvvədə saxlayır və müəyyən olunmuş ərazilərdə monitorinqlərin keçirilməsi tələbini bu gün də irəli sürməkdədir. Bütün bunlar öz yerindədir.

Amma bu arada məhz Ermənistanın (???) təşəbbüsü ilə BMT-də Laçın yolu üzərində cərəyan edən olayların müzakirəyə çıxarılması özü-özlüyündə bəzi sualları yaradır. Qarabağ Azərbaycandır və bu fakt beynəlxalq aləm tərəfindən birmənalı olaraq tanınırsa, Ermənistan hansı haqla Azərbaycanın daxilində baş verən proseslərə, sözün əsl mənasında, yenidən burun dürtməyə başlayıb? Çünki Azərbaycan dəfələrlə bu və ya digər şəkillərdə və rəsmi qaydada bəyan edib ki, bu gün Qarabağdakı erməni vətəndaşlarının aqibətləri ilə məhz Ermənistan və Qarabağ separatçıları oyun oynayırlar. Və bu gün gerçək humanitar fəlakəti də oradakı ermənilərə həmin dairələr törədirlər. Amma bunun digər tərəfləri də var. Artıq bir neçə gündür ki, RSK daha əvvəl yerləşdirdikləri baryerlərini və hərbçilərini Laçın yolundan, aksiyanın keçirildiyi ərazidən geriyə çəkib. Görünür, RSK məhz yolun onların özləri tərəfindən bağlanması ittihamlarından yaxasını qurtarmaq üçün bu addıma gedib. Lakin...

Lakin daha bir məqam Qarabağdakı separatçı-quldur kəsimin vəziyyəti daha da mürəkkəbləşdirmələri cəhdləri ilə bağlıdır. Ötən gündən məlum olub ki, ermənilər Ağdamdan Kəlbəcərə və Ağdərəyə gedən yolları bağlayıblar, üstəlik bəyan edirlər ki, Laçın yolu açılmayana qədər bu yolu da açmayacaqlar və s. Deməli, vəziyyətin gərginləşməsi üçün açıq-aşkar təxribatçı məqsədlər ortadadır...

Amma bütün bunlara rəğmən, top da Bakıdadır və bu mənada hansı nəticələrə gəlmək olar? Ya da vəziyyətdən çıxış yolu necədir?

Birincisi, separatçıların yolu bağlamaları sübut edir ki, RSK-nın və separatçıların davranışları İrəvanın daha əvvəl də iddia etdiyi "Bakı-Moskva gizli razılaşması" iddialarını yerli-köklü məhv edir. İndi hər kəsi bir sual maraqlandırır ki, üçtərəfli bəyanatın imzalanmasından sonra, ötən iki il müddətində əldə edilmiş əlavə şifahi razılaşmalara əməl etməyə gərək qalırmı? Həmin şifahi razılaşmaların bəzisini xatırlada da bilərik:

- Ermənistanın rəsmi şəxslərinin və xarici vətəndaşlarının RSK-nın olduğu ərazilərə səfər qadağaları. Halbuki, RSK zaman-zaman bu şifahi razılaşmalara da dəfələrlə məhəl qoymayıb, faktlar isə kifayət qədər çoxdur!
- Hazırkı məqamda Azərbaycan SQ-nin separatçıların bağladıqları yoldan keçməmələri daha bir şifahi razılaşmanı pozur.
- Qarabağla bağlılığı olmayan ermənilərin Qarabağda olmaları - Ruben Vardanyanın "zühuretmə" faktı ortadadır. Bütün bunlar isə sübut edir ki, şifahi razılaşmalar da işləmir.

Bəs belə bir situasiyada daha hansı addımlar atıla bilər? Təbii ki, Bakının daha çevik fəaliyyətə keçməsi üçün zəminlər yaranıb. Birincisi, ekoaksiya tam sürəti ilə və daha artıq gücü ilə davam etdirilməlidir. Hədəf faydalı qazıntılar yataqlarıdır. Orada aparılan qanunsuz işlər dayandırılmalıdır!

İkincisi, heç kim deyə bilməz ki, Azərbaycan öz ərazilərində yaranmış növbəti təhdidlərə görə antiterror əməliyyatlarını keçirə bilməz. Fərrux, Daşbaşı, Qisas və s. əməliyyatları buna sübutdur. Bu baxımdan, hələ də Qarabağda qalmağa davam edən Ermənistan silahlı qüvvələrinə məxsus infrastrukturların havadan və yerdən məhv edilməsi hər an baş verə bilər!

Üçüncüsü, gərək olarsa aksiyada iştirak edən fəallar RSK-nın da nəqliyyatlarına baxış keçirməlidir. Necə deyərlər, "xalq nəzarəti" adı altında. Yəqin ki, Moskva sovet vaxtlarının bənzər tandemini unutmayıb...

Dördüncüsü, Xankəndiyə və ətrafına verilən qaz, işıq və s. enerji resursları, həmçinin bank-maliyyə köçürülmələri, internet, mobil rabitə, telefon qovşaqları şəbəkələri birbaşa Azərbaycanın nəzarətinə keçirilməlidir.

Və beşincisi - şərti sərhədlərdə, RSK-nın məntəqələri qarşısında sərhəd buraxılışı məntəqələrinin təyin olunması. Çünki hazırkı məqam artıq bunu da diktə edir.

Hə, qaldı ki, hansısa bəzi xarici ölkələrin rəsmi qurmlarının rəsmi Bakıya qarşı "humanitar prinsip dərslərini" keçmək cəhdlərinə, onlar da yaxşı bilirlər ki, Qarabağ Azərbaycandır - necə ki, Tallin Estoniya, Ottava Kanada, Vilnüs Litva, Vaşinqton ABŞ-dır. Diqqət isə Laçın yoluna və Laçın yolundadır!

# Karqo sifarişləri zamanı necə diqqətli olmalıyıq?



***Bildiyimiz kimi, Türkiyə, Fransa, ABŞ, Rusiya kimi ölkələrdən sifariş edərək bir çox məhsulları əldə etmək mümkündür. Lakin heç də hər zaman proseslər planlaşdırdığı kimi həyata keçirilmir. Bir çox alıcı onlayn sifariş prosesindən məlumatlı olsa da, bəzi məqamlardan xəbərsiz qalır.***

Onlayn alış-veriş zamanı alıcı sifariş etdiyi malın hansı ölkədən gəlməsi ilə bağlı məlumatı dəqiqləşdirməlidir. Eyni zamanda, gömrükdə problemlə qarşılaşmamaq üçün satıcıdan hesab fakturası tələb olunmalıdır. Əgər son tarixlər bitmək üzrədirsə və ya obyekt tez xarab olan məhsuldursa, malların çatdırılmasının ən yaxşı yolu avtomobil və ya dəniz xidməti yox, hava nəqliyyatı olmalıdır. Eyni zamanda etibarlı şirkətlər sığorta, gömrük rəsmiləşdirilməsi, çarter nizamnaməsi, yüklərin boşaldılması, yüklənməsinin təşkili və s öz öhdəliklərinə götürülməlidir.

Geniş çeşidli gəmilər, sürətli marşrutlar və olduqca müasir anbarlar müştərilərin müxtəlif istəklərini təmin etməyə imkan verir. Məhsulların daşınmasında soyuduculara və ya böyük qablaşdırmalara ehtiyac olacaqsa əlavə xərclər tələb olunur. Malların baha qiymətə başa gəlməməsi üçün çatdırılma üsulunu necə seçmək olar?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Quru nəqliyyatının əsas üstünlüyü təhlükəli yüklərin daşınmasıdır. Bunun üçün müşayiətedici və icazə sənədləri hazırlanır, hərəkət marşrutu nəzarət orqanları ilə razılaşdırılır, multimodal marşrut sxemi hazırlanır.

Kargo şirkətləri bütün Azərbaycan əhalisinin Türkiyədən onlayn alış-veriş etməsini və sifarişlərini sürətli şəkildə əldə etməsini təmin etmək üçün bağlamaları bütün rayonlara poçt vasitəsilə çatdırır. Lakin bölgələrdə filialları açan kargo şirkətlər də az deyil.

Rəqəmsal Marketinq Meneceri Xədicə Həmidi :" Vətəndaşların kargo şirkətlər vasitəsilə məhsul sifariş verməninin bir çox üstünlüklərdən bəhs etmək olar. Bunlara aşağı qiymət, seçim çeşidliliyi, ölkə daxilində mövcud olmayan və zəruri malların sifarişlə çatdırılması, o cümlədən, əlçatanlıq və s aiddir. Bəzi məhsullar ölkə sərhədindən keçirilərkən müəyyən problemlər yaşana bilər. Bəzilərini isə qonşu dövlətlərin gömrük qaydalarına əsasən sifarişlə gətirmək olmur.

*Ən çox sifariş edilən, lakin daşınmasında problem yaşanan məhsullar aşağıdakılardır:

*Dəmir qablaşdırmalı spreylər (Türkiyə gömrüyündə çətinlik yaşana bilər)

*Yanğınsöndürmə balonları (Türkiyə gömrüyündən keçidinə qadağa qoyulub)

*Poverbank (Türkiyə gömrüyündən keçidinə qadağa qoyulub)

*Batareya və batareyalı məhsullar(Türkiyə gömrüyündən keçidinə qadağa qoyulub)

*Gözyaşardıcı qazlar (Türkiyə gömrüyündən keçidinə qadağa qoyulub)

*Kommersiya məqsədilə sifariş edilən bütün məhsullar((Yerli gömrükdə çətinlik yaşana bilər)

*Dərmanlar (Həm yerli, həm də Türkiyə gömrüyündə problem yaşanır)

*Saxta pul və sənədlər, həmçinin qızıl məhsulları(Yerli gömrükdə çətinlik yaşana bilər)



Şəxsi təcrübəmə əsasən, son bir ildə vətəndaşlarımız Türkiyədən ən çox məşhur paltar brendlərinin məhsullarını, kosmetik vasitələr,geyim aksessuarları və bijuteriya, bir də vitaminləri sifariş ediblər. Amerikadan isə luks kateqoriyasından olan paltar və geyim aksessuarları, kosmetika və bütün bunlardan çox isə elektronika malları daşınır.

Niyə daha çox bu məhsulların xaricdən alındığını soruşsanız çünki bütün problemlərə rəğmən sərfəli olan həmişə daha cəlbedici olur".

**Havar Şəfiyeva**






ARAŞDIRMA

# Erməni separatizmi və onların törətdikləri ekoloji terror

## QHT-lərin və ekoloji fəalların Şuşa- Xankəndi yolunda keçirdiyi aksiya haqlı və əsaslıdır

Ermənilər iki əsrdən çoxdur ki, azərbaycanlılara qarşı kütləvi qırğınlar, qarətlər, vəhşiliklər törədiblər. Bu qırğınlar nəticəsində iki milyondan çox azərbaycanlı qətlə yetirilib, yüz minlərlə insan yaralanıb, əlil olub. Ev-eşiyindən didərgin salınan azərbaycanlıların sayı yüz minlərlədir. Hətta Azərbaycan ərazilərində yaşayan milli azlıqlar ləzgilər, avarlar, yəhudilər, tatlar, udinlər və digər azsaylı xalqlar belə təcavüzün qurbanı olmuşlar. Erməni terrorçu hərbi birləşmələri 30 ilə yaxın işğal altında saxladıqları Qarabağın kənd və qəsəbələrində, şəhərlərində qırğınlar, terror hadisələri törətmiş, tarixi memarlıq nümunələrini, abidələri dağıtmaqla vandalizmə yol vermişlər. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Ermənistanın terrorçu hərbi birləşmələrinin Azərbaycan ərazilərində törətdikləri vəhşiliklər barədə demişdir: "Ermənistan terrorçu ölkədir. Birinci Qarabağ müharibəsi dönəmində bizə qarşı onlarca terror aktı törədilmişdir - metrolarda, avtobuslarda, gəmilərdə. Hesab edirəm ki, erməni terroru dünyada məşhur olan bir mənfur fakt kimi dünya tərəfindən qəbul edilməlidir".

44 günlük Vətən Müharibəsi dönəmində də Ermənistan mülki əhalini hədəfə al-





mış, müxtəlif qadağan olunmuş silahlardan istifadə etməklə vəhşiliklər törətmişdi. Ümumilikdə Vətən müharibəsi vaxtı Azərbaycanın 20-yə yaxın şəhər və qəsəbələri Ermənistan tərəfindən raket atəşinə tutulmuş və nəticədə yüzlərlə insan qətlə yetirilmişdir. 2020-ci ilin oktyabrın 4-də Ermənistanın raket atəşi nəticəsində Gəncə şəhərində bir mülki şəxs şəhid oldu, 30-dan çox mülki şəxs ağır və yüngül dərəcəli bədən xəsarəti aldı. Oktyabrın 5-də ikinci, oktyabrın 8-də isə Gəncəyə üçüncü raket hücumu baş verdi. Aralarında uşaq da olmaqla neçə-neçə insan həyatını, yaxınlarını, evlərini itirdi. Oktyabrın 27-də Bərdəyə raket zərbələri endirildi, oktyabrın 28-də isə 2-ci raket zərbəsi vuruldu. Bu kimi vəhşilikləri ilə Ermənistan 1949-cu il Cenevrə Konvensiyasını kobud şəkildə pozmaqla hərbi cinayətlər törətdi.

### Terrorçu Ermənistan işğal zamanı İslam mədəniyyət abidələrini tamamilə məhv edib

30 illik işğalı zamanı Ermənistan Qarabağ və ətraf rayonlarda muzeylər, məscidlər, abidələr dağıdıb, bununla tək Azərbaycan xalqının deyil, bütün İslam dünyasına, ümumilikdə isə bəşəriyyətə yönəlik vandalizm aktları törədib. Ermənistan tərəfindən əzəli torpaqlarımızdakı İslam mədəniyyəti abidələri tamamilə məhv edilib və ya bu abidələrin yazıları dəyişdirilməklə ermənilərə məxsusluğu barədə müxtəlif dillərdə dezinformasiyalar yayılıb, beynəlxalq ictimaiyyəti aldatmağa cəhdlər göstərilib. Qarabağdakı 67 məsciddən 65-i tamamilə dağıdılıb, digər 2-i isə yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara və bütövlükdə müsəlman dünyasına qarşı öz nifrətlərini nümayiş etdirirlər. Müharibə dövründə mədəni mülkiyyətin mühafizəsi məsələləri, əsas etibarilə, xüsusi beynəlxalq sazişlə "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası ilə nizama salınır və 60-dan çox ölkə bu Konvensiyanın iştirakçısıdır. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni işğalçıları tərəfindən tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması həmin Konvensiyaya, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.Vandalizm aktları birmənalı şəkildə beynəlxalq qanunlar və konvensiyalarda yoverilməz hesab edilir. 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişələr zamanı mədəni abidələrin qorunmasına dair Konvensiya" müharibə dövründə mədəni mülkiyyətin qorunmasına həsr olunmuş ilk beynəlxalq müqavilədir. Bu Konvensiyaya əsasən, hücum edən tərəfin mədəni mülkiyyətə hörmət edib qorumaqla yanaşı, həm də işğal edilmiş ərazilərdə bu mülkiyyətin oğurlanmasının qarşısının alınması istiqamətində konstruktiv addımlar atmaq öhdəliyi var.







### Ermənistanın ətraf mühitə və təbii resurslara vurduğu zərər 265,3 milyard dollardır

Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında ermənilər və onların havadarları təbii sərvətlərimizi qanunsuz olaraq mənimsəməkdə, beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozmaqda və ekologiyaya ciddi ziyan vurmaqda davam edirlər. Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri "Azercosmos"un peyk şəkilləri də sübut edir. Şəkillərdən görünür ki, işğal altındakı ərazilərin flora və faunası məhv edilib. Ekspertlərin ilkin hesablarına əsasən, Ermənistanın ətraf mühitə və təbii resurslara vurduğu zərər 265,3 milyard dollar dəyərindədir. Bu gün də erməni separatçıları və onları himayə edənlər Azərbaycanın Qarabağ iqtisadi ərazilərində faydalı qazıntılarını talan edirlər. Ancaq Azərbaycan dövləti və xalqı artıq bu talançılığın davam etməsinə imkan verməyəcək. Xalq öz sərvətlərinə özü qərar verməlidir. Bu səbəbdən də, dekabrın 3-dən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıblar. Lakin sülhməramlılar öz dövləti maraqlarından irəli gələrək, Azərbaycan dövlət qurumlarının nümayəndələrinə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında monitorinq aparılmasına şərait yaratmadılar. Bu da 2020-ci il 10 noyabr tarixli Bəyanatın müddəalarına ziddir.

### Tələblər yerinə yetirilənə qədər, aksiya davam edəcək

Ümumiyyətlə, mövcud fakt ondan ibarətdir ki, Ermənistan 10 noyabr 2020-ci il bəyanatına əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Başlıcası, Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri arasında imzalanmış Bəyanatın 4-cü bəndinə zidd olaraq erməni silahlı qüvvələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb, 6-cı bəndinə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunur, bəyanatın 9-cu bəndinə zidd olaraq bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədilir. Təbii ki, bütün bu kimi pozuntular beynəlxalq konvensiyalara, xüsusilə də, 10 noyabr bəyatının tələblərinə hörmətsizlikdir. Bu da cavabsız qalmamalıdır. Hələlik isə, Azərbaycan ordusu Müzəffər Ali Baş Komandanın əmrini gözləyir. Ölkəmizin vətəndaş cəmiyyəti fəalları, aktistləri, QHT-ləri , könüllüləri isə isə susmayırlar. Haqlı və əsaslı tələblərlə dekabrın 12-dən başlayaraq Şuşa-Xankəndi yolunda etiraz aksiyaları keçirirlər. Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçilərinin Şuşa-Xankəndi yolunda keçirdiyi etiraz aksiyası mülki ermənilərə qarşı deyil. Rusiya sülhməramlılarının yerləşdiyi Azərbaycan ərazilərində həyata keçirilən qanunsuz iqtisadi fəaliyyətlə, respublikamızın təbii sərvətlərinin talanması, ekologiyaya dəyən zərərlə bağlıdır. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Xankəndi yolunda keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyi başa düşülməlidir. Şuşa- Xankəndi yolunda keçirilən etiraz aksiyası 44 günlük Vətən müharibəsindən sonra milli hədəflər uğrunda ən kütləvi mübarizə aksiyasıdır. Hər dəfə olduğu kimi, yenə də Azərbaycanın qeyri-hökumət təşkilatlarının Şuşa-Xankəndi yolunda keçirdikləri etiraz aksiyasına ermənilər və onların havadarları fərqli don geyindirməyə çalışırlar. Sığındıqları ölkələrdə müxtəlif qondarma tədbirlər keçirib, şivən qoparırlar. İddia etməyə çalışırlar ki, guya Azərbaycanın aktivistləri Xankəndi yolunu bağlamaqla ermənilləri blokadaya alıblar. Əslində isə, yolu Rusiya sülhməramlıları bağlayıblar. Nə qədər kar, kor və lal olasan ki, dəfələrlə aksiya iştirakçılarının ən yüksək səviyyədə humanitar məqsədlər üçün daşımalarının həyata keçirildiyini görməyəsən. Hətta erməni təcili yardım maşınlarının sərbəst şəkildə hərəkətlərinə imkanlar yaradılıb. Bütün bunlar erməni tör-töküntülərinin və onların himayədarlarının ifşasıdır. Məqsədimiz separatçıların tamamilə ləğv edilməsi, faydalı qazıntılarımıza özümüzün sahib olmağımızdır. Bu tələblər yerinə yetirilənə qədər, təbii ki, aksiya davam edəcək.

**İ.ƏLİYEV**



# ABŞ İran və Rusiyadan nə istəyir?



POLİTOLOQ DANIŞDI

**“Beynəlxalq hüquqa görə sanksiyalar bir cəza sistemidir və hal hazırda istər ABŞ, istər Avropa İttifaqı dövlətləri, istərsə də G7 ölkələri tərəfindən dəstəklənən sanksiyalar dünyada gedən siyasi-hərbi proseslərin nəticəsi kimi qiymətləndirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.**

Politoloq qeyd edib ki, Ukraynaya təcavüzündən sonra Rusiyaya qarşı tətbiq edilən sanksiyalar öz həcminə və əhatə dairəsinə görə misli görünməmiş səviyyədədir və Rusiya iqtisadiyyatına məhvedici təsir göstərir: ”Rusiya hər nə qədər sanksiyalara qarşı dayanıqlı olduğunu nümayiş etdirsə də bu ölkənin iqtisadi göstəricilərində hər keçən gün müşahidə edilən çöküş onu deməyə əsas verir ki, sanksiyalar öz təsirini göstərir. Rusiyanın maliyyə sisteminin, bank sisteminin dağılmağa başladığı, istehsal sahəsində tənəzzülün hökm sürdüyü, qaz və neft məhsullarına qarşı tətbiq olunan sanksiyalar səbəbilə Rusiya və Hindistan bazarına möhtac qaldığı göz önündədir. Məsələn Rusiyanın ən böyük bankı və üç böyük şirkətindən biri olan ”Sberbank”ın 4 səhmdən ibarət depozitar qəbzinin biri ötən il London birjasında 20 ABŞ dollarına satılırdısa indi bu rəqəm heç bir dollar da deyil. Bunun nəticəsində tək ”Sberbank” 100 milyard dollar dəyər itirib. Sanksiyaların tətbiqindən sonraRusiya Mərkəzi Bankı təxminən 400 milyard dollar həcmində valyuta ehtiyatı üzərində nəzarətdən məhrum olub. Ümumilikdə isə Rusiyanın maliyyə itkilərinin ümumi məbləğinin bir trilyon dollara çatması haqqında məlumatlar var. Lakin bütün bunlar son deyil və vaxt geçdikcə sanksiyaların təsiri özünü daha qabarıq göstərməyə başlayacaq. Üstəlik, Rusiya zənginlərinin sərvətləri də əllərindən çıxıb. Aralarında İqor Seçin, Aleksey Miller, Andrey Kostin, Roman Abramoviç, Oleq Deripaska, Sergey Çemezov, Arkadi və Boris Rotenberq qardaşları, özbək əsilli Əlişir Usmanov, İqor Şuvalov, Nikolay Tokarev, Yevgeni Priqojin və digər zənginlərin adlarının yer aldığı sanksiya siyahısı genişlənməkdə davam edir. ABŞ prezidenti Co Bayden Konqressə müraciətində rusiyalı məmur, oliqarx və zənginlərin sərvətlərinin bütün dünya boyu müsadirə olunacağını elan edib. Ümumiyyətlə qeyd edim ki, Avropa Birliyi, Böyük Britaniya və ABŞ-ın Rusiyaya qarşı sərt sanksiya tətbiq edəcəyi halda vəziyyətin belə olacağı gözlənilən idi. Çünki Rusiyanın ixracatının yarısından çoxu məhz bu ölkələrin, əsasən də Avropa Birliyinin payına düşür. Rusiyanın enerji xammalının əsas alıcısı Avropa İttifaqıdır. Rusiya qaz ixracının 60 faizindən çoxunu Avropa istiqamətində həyata keçirir. Neft və neft məhsullarının 50 faizdən çoxunun alıcısı da Qərb ölkələridir. Alüminium ixracının 35, kömür ixracının təxminən 30 faizi Qərbin payına düşür. Böyük Britaniya idxal etdiyi qızılın 90 faizindən çoxunu Rusiyadan alırdı. ABŞ-ın platin idxalının təxminən 30 faizini Rusiyadan alınan məhsullar təşkil edirdi. Bütün bunlara görə sanksiyalar maliyyə sektoru ilə yanaşı, istehsal və hasilat sektorlarını da məhv edir”.

R.Bayramov əlavə edib ki, sanksiyaların Rusiyanın Qərb texnologiyalarına çıxışını da məhdudlaşdırdığını nəsə alsaq deyə bilərik ki, Rusiya faktiki olaraq mövcud dünya standartlarından da geri qalacaq: ”Çünki Çin və Cənub-Şərqi Asiyadan daha az inkişaf etmiş alternativlərə bel bağlamaq məcburiyyətində qalacaq. Rusiyanın xaricdən asılılığı isə bəzi sahələrdə çox böyük səviyyədədir. Məsələn, quşçuluq istehsalının 99, südlük mal-qara istehsalının 30 faizi idxaldan asılıdır. Şəkər çuğunduru, kartof, balıq yemi və amin turşuları kimi əsas məhsullar üçün toxumlar da önəmli şəkildə idxaldan asılıdır. Aviasiyada sərnişin daşımanın 95 faizi xaricdə istehsal olunan təyyarələrin payına düşür. Onların ehtiyyat hissələrinin idxalı mümkün olmadığı üçün həmin təyyarələrin istifadədən çıxması fəlakətli vəziyyət yaradacaq. Rusiyada istehsal olunan dəzgahların yalnız 30 faizi ölkənin özündə istehsal olunur, yerli sənaye avadanlıqlara artan tələbatı ödəyə bilmir. İrana gəldikdə isə bu ölkə uzun illərdir ki, ABŞ-ın sərt sanksiyaları altındadır və belə demək mümkündürsə artıq sanksiyala öyrəşib və bu müddət ərzində sanksiyaların təsirindən qorunmaq üçün həm yerli istehsalı inkişaf etdirib, həm də alternativ bazarlar tapa bilib. İndi tətbiq olunan sanksiyalar isə Bayden administrasiyasının Rusiyanın Ukraynaya hücum etmək üçün İran istehsalı olan dronlardan istifadə etməsindən sonra Tehrana qarşı ciddi şəkildə sanksiyalar tətbiq edəcəyi iə bağlı verdiyi xəbərdarlığa məhəl qoyulmamasının nəticəsidir. Xatırlayırsınızsa hələ iki ay əvvəl rəsmi Vaşinqton Tehrana qarşı silah satışı və etirazların qəddarlıqla yatırılması ilə bağlı sanksiyalar tətbiq edəcəyinin anonsunu vermişdi. Ağ Ev həmçinin İran daxilində etirazçıların sərt rejimə müqavimət göstərməyə davam etdiyi vaxt nüvə razılaşması üzrə danışıqlarda yaranmış çıxılmaz vəziyyətin tez bir zamanda həll olunacağına şübhə etdiyini də bildirmişdi. ABŞ və Aİ tərəfindən İrana qarşı tətbiq olunan yeni sanksiyalar daha çox fərdi xarakter daşıyır və əsasən də yüksək vəzifəli məmurları, silah istehsalmılarını və satıcılarını, eləcə də İran İnqilabı Keşikçiləri Korpusu, Sepah və Bəsic qüvvələrinin rəhbərliyini, insan hüquqlarını pozmaqda iştirak edən şəxsləri əhatə edir. Çünki yeni iqtisadi sanksiyaların tətbiqinə ehtiyac yoxdur. Qərb düşünür ki, İranın onsuz da ağır sanksiyalar altında olduğunu nəzərə alsaq, iqtisadi sanksiyaların güclü təsir göstərməsi ehtimalı azdır. Düşünürəm ki, sanksiyalar hər nə qədər effektli təsir imkanı olsa da indiki mərhələdə Rusiya ilə müqayisədə İrana elə də ciddi təsir göstərməyəcək. Çünki yuxarıda da qeyd etdiyim kimi İran artıq uzun müddətdir ki, sanksiyaların altında olduğu üçün bu ölkədə sanksiyalara qarşı sanki bir ”immunitet” formalaşıb. Odur ki, istər ABŞ, istərsə də digər ölkələr daha effektli təsir metodlarından istifadə etməli və İranı ayaqda saxlayan ölkələrə, İranın böyük ticarət tərəfdaşlarına da sanksiyalara qoşulmaq üçün təzyiq göstərməlidirlər”.

***Banuçiçək Hüseynli***



MƏTANƏT

# Slm, ncn, twk...

**Bəzən adamın könlündən dəli bir ağlamaq keçir. Nə vaxt? Əksər müasir yeniyetmə-gəncin sosial şəbəkələrdə yazışmalarını görərkən, bəli, dəli bir ağlamaq keçir könüldən. Bilmirsən bu gənclərin düşdüyü vəziyyəti ağlayasan, yoxsa dilin düşdüyü vəziyyəti. Deyirsən, İlahi, bu dilin günahı nədir axı, illərdir, əsrlərdir, kim haraya istəyirsə, o tərəfə çəkir, kim nə istəyirsə, onun başına o oyunu gətirir.**

Artıq dəfələrlədir, bu barədə deyirəm, yazıram, hansı gəncdə görürəmsə, danlayıram, tənqid edirəm, alınmır ki, alınmır. Elə baxırsan ki, köhnə hamam, köhnə tas. Yaxşı, bəs gənclərimiz haraya gedirlər bu cür yazı forması ilə? Görəsən bu dilə heç yazığı gələn yoxdur?

”Slm ncn ne var ne yox Hardasn unuye gelesn sat necdə görwek”... Buyurun, dilimizin müasir hüsni-xətti. Hərflər gedib iş-gücünün arxasınca, durğu işarələri isə torpağa gömülüb. Yuxarıdakı cümlələrdə hər sözü qoyuram bir kənara. Dayanıram ”salam(müasir slm)” sözünün üzərində. ”Salam” Allahın adlarından biridir. Kim ixtiyar verir ki, dünyaya gəlişimizə hökm verən Yaradanın adını belə ”ixtisarla” yazaq? Bu, hörmətsizlik deyilmi?..

Dəhşətdir, vallah, həm də çox dəhşətdir. Yeniyetmə-gənclərimiz düz olmayan yoldadırlar. Dilimiz əldən gedir. Neçə il əvvəldən çalınan həyacan təbili yenə də çalınır. Lakin kimdir bu təbilin ”nəğməsinə” qulaq asan. Necə deyərlər, bu yarım-yapalaq sözlərdən istifadə edən gənclər eşitdikləri sözü bir qulaqlarından alıb, o biri qulaqlarından ötürürlər havaya.

Baxırsan ki, elə bayaqdan bəri danışdıqların ağzında qalıb, əməl edən yoxdur. Hələ yeri gələndə adama lağ da edirlər ki, sənin də işin-gücün qurtarıb ey, sözləri olduğu kimi yazırsan. Bir misal çəkim, öz də başqalarından deyil, öz övladlarımdan. Günlərin bir günü telefonda məktub yazıram. Bitirib, başlayıram korrektə və redaktə etməyə. Sən demə bunlar da başımın üstündədirlər, xəbərim yoxdur. Birdən başladılar gülməyə ki, ana, sən yazdığına düzəliş də edirsən? Dedim, sağ olun, afərin sizə, bəs nə etməliyəm ki? ”Ay ana, işin-gücün yoxdur, sənin?”,- dedilər. Dedim ki, işim də var, gücüm də, özümə hörmətim də var, dilimə də sayğım var.

Nə olsun, dil üç-beş nəfərlə qorunmur axı. Gəlin görək, əksər yeniyetmə-gənc dilimizin qrammatik qanunlarına riayət edirlərmi? Xeyir, elə bəla da bundadır ki, riayət edən yoxdur. ”Salam, necəsən?”i, ”slm, ncn”, ”təşəkkür edirəm”i ”twk edrm” kimi yazırlar. ”Başım qarışıb”ı ”bawm qarwb”, ”axşam düşür”ü ”axwam düwr”, ”lazım deyil”i ”lazm del” kimi ifadə edirlər. Dərd tək bu olsa, deyərsən, yarıdır. Müasir gənclərimiz insan, şəhər, kənd, yazıçı, müəllimlərinin adlarını kiçik hərflə yazırlar, ay camaat. Demirəm ki, bunların böyük hərflə yazıldığını bilmirlər, bilənlər var, lakin yazı qabiliyyəti itib onlarda.

”Ə” hərfimiz gedib, yerinə ”e” gəlib. Görəsən səbəb nədir? Səbəblərdən əsas birini məktəblərdə inşa, imla, ifadə yazılarının azaldılmasında görmək olar. Bu, uşaqların yazı qabiliyyətini itirməkdədir. Digər səbəblər isə məsuliyyətsizlik, tələskənlik, hörmətsizlikdir. Həm özünə, həm də qarşıdakına...

Bəzən düşünürəm ki, bir günlük bu telefonlar yığışdırılsa və yaxud internet dayansa, bu yeniyetmə-gənclərimiz görəsən əllərinə qələm alıb bir normal məktub yaza bilərlər? Heç inana bilmirəm. Yazarlar, lakin onu bizlər oxuya bilmərik. Hərfləyə-hərfləyə qalarıq, deyərik, Allah, görəsən bunlar nə demək istəyiblər. Necə ki, hazırda həmin o gənclərimizin yazdıqları məktubları anlamaqda çətinlik çəkirik.

Yaxşı, bəs bu qayda, dilə bu cür yanaşma ilə haraya gedirik? Nə vaxta qədər olacaq bu yolçuluq? Bizə bu yolda bir ”dayan, düşün, nə edisən”,- deyən olacaqmı? Olur, bəzən çox olur, lakin qulaqlar karlaşıb ta. Kim nə bilir, onu da edir. Vallah, adamın könlündən dəli bir ağlamaq keçir. Axı bu ”müasir yazı mədəniyyətinə” malik olanların əksəriyyəti universitetlərimizin tələbələridir. Aralarında yüksək balla ali təhsil ocaqlarına daxil olanlar da var. Bunları görəndə ağlamayıb, nə edəsən?

Hələ bunları qoyaq bir kənara. Bu dilin günahı nədir? Nə üçün hər kəs öz bildiyini edir bu dilə? Zamanla rus dilini qatdıq dilimizə, sonra türk dilini qatdıq, indi də yarı rus, yarı türk, ingilisin də əlifbasından hərflər qatıb qarışıq bir dil düzəltmişik.

Yazıq dilim, günahsız, biçarə dilim. Əsrlərin elə bir anı olmadı ki, səni dilim-dilim etməmiş olsunlar. Vallah, bu dil şirdir, aslandır ki, bu qədər zərbələrə tab gətirir.

Kimin ürəyi necə istəyir, o cür yazır, kimin ürəyi nə cür istəyir, o cür danışır. Maraqlıdır, görəsən bir rus danışığına və ya yazısına bircə kəlmə Azərbaycan dilində hərf, söz qatar? Bir türk öz dilində qarşılığı olduğu təqdirdə bircə kəlmə Azərbaycan dilində söz işlədər? İngilis necə, əlifbamızdan bircə hərfi yazısına qatar? Vallah yox, yox, yox.

Bəs biz niyə beləyik? Niyə çalınan bütün havalara qol qaldırıb oynayırıq? Sabah doğulacaq uşaqlarımıza da bu cür yazı mədəniyyətimizi öyrədəcəyik? Belə isə deyəcəyim yalnız budur: təəssüflər...

Həm də çox təəssüflər...

# Ruben Vardanyana məxsus FASİLƏSİZ DƏYİŞƏN "SİFƏT"

**Öz əcdadları kimi buradan ora, oradan da bura köç etməyi asanlıqla bacaran Ruben Vardanyan Moskvadan Xankəndinə köç edəndən sonra özünün söz və olmayan üz ehtiyatlarından bacardıqca çox istifadə edir, hətta israf edir və unudur ki, bir zaman öz xalqı tərəfindən belə ittiham olunanda lazımı olacaq. Axı bir dondan başqa bir dona girmək, bir "sifətdən" başqa "sifətə" düşmək nə qədər olar və bu "sifətləri" ermənilərə tamamilə bəlli olandan sonra istifadə edəcəyi bir "sifəti" qalıbmı? Maraqlı sualdı, amma bu sualın cavabını özü versə yaxşı olar, çünki "sifət" deyiləndə onun nə başa düşdüyünü özü bilər.**









Moskvanın verbofkası olan Rubeni bu günə qədər bir maliyyə fırıldaqçısı kimi tanıyanlar indi onun daha çox "sifətlərini" kəşf etməyə başlayıblar. Guya Qarabağdakı erməni əsillilərin "xilaskarı" kimi Xankəndiyə gələn Vardanyan özünü "dövlət naziri" elan edəndə artıq sifətinin pərdəsinin birinci qatı cırılmışdı. Bunun ardınca bir-birinə əks ifadələr, fikirlər səsləndirəndə qalan sifətləri də üzə çıxmağa başlayırdı və bu proses görünür hələ çox davam edəcək, çünki bu adamın neçə sifətdə olduğunu kimsə deyə bilməz. Ən azından "sifətini" sürətli şəkildə dəyişməsi təsdiq edir ki, özü belə ehtiyatda hələ çox olduğunu hamıdan yaxşı bilir.

Özü-özünü qondarma "dövlət naziri" elan edən Ruben Vardanyan bir gün belə mediada çıxış etməkdən özünü saxlaya bilmir. Hər dəfə də bir "sifət" ortaya qoyur, amma deyəsən nə yorulmur, usanmır, nə də "sifət" qurtarmır ki, qurtarmır. Maliyyə fırıldaqçısı siyasi səhnə üçün də çoxlu fırıldaq fikirləşibmiş lap əvvəldən. Elə buna görə də hazır ssenarilərlə gah nala vurur, gah da mıxa. Reallıqla qəti işi olmayan bu oliqarx bütün oyunlarının sonunda kədərli nəticələrlə, hüznlə qarşılaşmalı olursa da məkrindən əl çəkmir ki, çəkmir. Onsuz da Azərbaycanın yaratdığı reallıqlar qarşısında belə fırıldaqçıların oyunları fiaskoya məhkumdur və bunu nə qədər tez anlasa bir o qədər özü üçün yaxşı olar və bir zaman aradan çıxmaq, özünü qorumaq üçün "sifətlərini" az xərcləyər. Amma görünür itirdiklərinin, itirəcəklərinin və bundan sonra nə ilə qarşılaşacağının fərqində deyil. Yox, əgər fərqindədirsə və hələ davam da edirsə, deməli, "sifətlərinin" sayı, hesabı barədə həqiqətən də təəccüblənməyə dəyər.

Rusiyadan oğurladığı pullar hesabına özünə Qarabağ ərazisində münbit şərait qurmaq üçün köçüb Xankəndidə məskunlaşan fırıldaqçının könlündən çox şey keçirmiş. İştahası da yaman çox imiş. Bu maliyyə fırıldaqçısı Qarabağa gələn kimi, əvvəlcə özünü bu yerlərin ağası görməyə başladı. Eyni ilə ermənilər qondarma "Böyük Ermənistan" barədə xam xəyallara düşdüyü kimi, bu da vəziyyətə nəzarət etmək kimi bir xam xəyala qərq oldu. İndi də baxır ki, oyun oynamasa, artistlik etməsə xam xəyalları puça çevrilir, özü də eyni ilə həmvətənlərinin Qarabağ barədə arzuları puça çevrildiyi kimi. Maliyyə fırıldaqçısı başa düşməyə başlayıb ki, barəsində yaratdığı mif, elə qondarma "məğlubedilməz erməni əsgəri" mifi kimi darmadağın olmağa başlayıb və proses çox sürətli gedir. Belə davam eləsə tez bir zamanda prosesdən qabaq elə özü getməli olacaq, amma hara, özü də bilmir. Bir zaman ermənilərin məskunlaşdıqları ərazilərdə özünü "ağa" görmək istəyən, hətta bu eyforiyaya qapılan Ruben indi də daxili auditoriya qarşısında "təvazökar" bir "sifət" alıb və guya bu adam mülki əhalinin qayğısına qalır. Halbuki, Moskvadan bu niyyətlə gəldiyi heç ağıla sığışan məsələ deyil. Bu zamana qədər cürbəcür hava çalan, gah hədə-qorxu, təhdid, gah da yalvarış dili ilə danışan bu adam indi də "təvazökar" bir görkəm alıb.

"Mən bilirəm ki, müxtəlif şayiələr yayırlar, inanmayın. Azərbaycanlılar deyir ki, sizin maşınlarınızı buraxacaqlar, axı onlar kimdir ki, bizi buraxsınlar, ya buraxmasınlar? Onların bu yolu kəsib qərar qəbul etməyə, qərar verməyə haqqı çatırmı? Ümumiyyətlə, qərarı kim verir? Hansısa insan haqları təşkilatının üzvü olduğunu iddia edən qadın qərar verirmi?", deyən Vardanyan təkcə "ağa" kimi yox, deyəsən artıq bu dəfə də özünü qəhrəman kimi göstərməyə çalışıb, hansıki buna da onun növbəti "sifəti" demək olar. Ruben hansı potensial, hansı səlahiyyət sahibidir ki, belə bir şəkildə ifadə işlədir? Bəlkə yolun açılıb-bağlanması ixtiyarı onun əlindədir? Yoxsa, yolun açılması, ya da bağlanması barədə qərar verə biləcək bir şəxs hesab olunur? Bir maliyyə fırıldaqçısından başqa kimdir axı o? Əlbəttə ki, heç kim deyil, heç bir səlahiyyət sahibi də sayılmır və qərar verəcək, yaxud da, hansısa təsir imkanlarına malik biri ola bilməz. Elə isə dediklərinin Qarabağdakı erməni əsillilər üçün də heç bir mənası yoxdur.

Bir maliyyə fırıldaqçısının narahat bir "sifət" alaraq, "böhran təhlükəsi" haqqında kədərli şəkildə yardım diləndiyini də hamı xatırlayır. Bir neçə gün əvvəl onun görkəmi fərqli idi axı. Bəlkə yardım gələməyəcəyini başa düşərək indi də Azərbaycanı şayiələr yaymaqda ittiham etmək niyyəti baş qaldırıb? Deyəsən Vardanyan harada, hansı dövlətin ərazisində olduğunu ya bilmir, ya da özünü bilməməzliyə vurur. Bu qədər bilməməzlik, düşüncəsizlik olmaz axı. O, bilməlidir ki, Azərbaycan torpağındadır və yalnız bu dövlətin, bu xalqın səbri tükənənə qədər həmin ərazilərin havasını uda bilər. Azərbaycanın hüquqlarından danışmaq istəyirsə, unutmasın ki, ölkəmizin hüquqları artıq sübut olunub. Bilməlidir ki, Azərbaycanın hüquqları ilk növbədə döyüş meydanında, 44 günlük müharibə zamanı sübut olundu. Digər tərəfdən də ölkəmizin hüquqları bir maliyyə fırıldaqçısı səviyyəsində deyil, beynəlxalq arenada sübut olundu və bu hüquqlar tanındı da. Vardanyan onu da bilməli, daha doğrusu nəzərə almalı, hətta unutmamalıdır ki, qisas anı olduğu zaman o çox ağır nəticələrlə qarşılaşmalı olacaq.

Bəlkə də Ruben Vardanyan özünü ya təhlükəsizlikdə hesab edir, ya da məskunlaşdığı Xankəndini "alınmaz qala" sayır. Amma bərk yanılır. Əvvəla, Xankəndi də Azərbaycan torpağıdır və bu şəhərdə özünü kosmosda hesab edə billməz. Digər tərəfdən, Xankəndi azərbaycanlılar üçün əlçatmaz deyil ki, o belə düşünülməmiş, axmaq sayıqlamalar edir. Xatırlatmaq yerinə düşərdi ki, Xankəndi bizim Şuşamızın da gözü önündədir. Yəni, bir addımlıqdadır və çox da xam xəyallara düşməsin. Ya da hansısa illüziyaların qurbanına, əsirinə çevrilməsi tövsiyyə edilmir. Ola bilsin ki, rus sülhməramlılarına, onların köməyinə arxalanır, amma bu məsələdə də yanılır, illüziyaların əsirinə çevrilir. Amma sülhməramlıların onu müdafiə edəcəklərini olmayan ağlından belə keçirməsin. Dərk etsin ki, leksikonundan "müstəqillik" və "öz müqəddəratını təyinetmə" kimi sözləri çıxarmasa vəziyyəti acınacaqlı olacaq. Heç kimin qəbul etmədiyi təəccüblü bir "sifət" almasına da heç lüzum yoxdur, bu "sifət" onu xilas edə bilməyəcək. Ruben Vardanyana məxsus fasiləsiz dəyişən "sifət" onu da, ətrafındakıları da yalnız uçuruma aparır. Azərbaycan hələlik səbr edir, amma səbr kəsası dolduğu zaman bu maliyyə fırıldaqçısı hədsizliyinin hesabını ödəməli olacaq və bu gün çox uzaqda deyil. Bunu Vardanyanlar yaxşı bilirlər, amma xatırlatmağa görnür ki, ehtiyac duyulurmuş. O baxımdan xatırladırıq ki, Azərbaycan tərəfi daxili auditoriyaya hesablanan bəyanatlar vermir, vədini əməli işində sübut edib və yenə də sübut etməkdədir.

***İnam Hacıyev***

SƏS
21 dekabr
2022-ci il

ARAŞDIRMA

# İnflyasiya necə yaranır?

**İnflyasiya mal və xidmətlərin ümumi qiymət səviyyəsinin davamlı artmasıdır. Eyni zamanda, bəzi mallar nəzərəçarpacaq dərəcədə bahalaşa bilər, digərləri ucuzlaşa bilər, bəziləri isə ümumiyyətlə qiymətdə dəyişməyə bilər.**

Əsasən, mal və xidmətlərin qiymətləri bazarda tələb və təklifdən asılıdır və bəzi qiymətlər dövlət tərəfindən tənzimlənir. Məsələn, fermerlər tərəvəzdən yaxşı məhsul götürsə, pomidor və kartofun qiyməti düşəcək. Əgər dövlət eyni zamanda alkoqolun aksizlərini artırsa, spirtli içkilərin qiyməti kəskin artacaq.



Hiperinflyasiya - qiymətlərin hədsiz dərəcədə artmasıdır. Tipik olaraq, hiperinflyasiya ağır böhranlar və müharibələr zamanı baş verir. Postsovet Rusiyasında 1992-ci ildə rekord (ildə 2500 faizdən çox) inflyasiya qeydə alınmışdır.

## İnflyasiya niyə yüksəlir?

İnflyasiya bir çox səbəblərə görə yüksələ bilər:

Tələbatın artması. Elə olur ki, insanlar birdən müəyyən məhsullardan daha çox almağa başlayırlar. Məsələn, mobil telefonlar əlverişli olanda hamıda mobil rabitədən istifadə etmək istəyi yaranır. Ona görə də mobil rabitənin qiymətləri yüksəlməyə başlayır. İstənilən çatışmazlıq qiymətlərin sürətlə artmasına səbəb olur. Milli valyutanın zəifləməsi.Valyuta məzənnəsi qalxarsa, o zaman idxal olunan mallar avtomatik olaraq bahalaşır. Bu da inflyasiyanın artmasına səbəb olur.

Yüksək inflyasiya gözləntiləri. İnsanlar və şirkətlər qiymətlərin kəskin artacağını gözlədikdə, onlar tez-tez istehlakçı davranışlarını dəyişməyə başlayırlar. Gələcəkdə istifadə üçün mal alırlar və daha az qənaət edirlər. Axı, sabah artıq ödəməkdənsə, bu gün ucuz almaq daha məntiqlidir. Şirkətlər də öz növbəsində məhsullarının qiymətini qaldırmağa başlayırlar. Məsələn, pendir istehsalçısı süd qiymətlərinin artacağını gözləyir. Gələcək xammala olan xərclərini ödəmək üçün əvvəlcədən malının qiymətini qaldırmağa başlayır.

İnflyasiyanın əmələgəlmə səbəbləri həm daxili, həm də xarici ola bilər. Xarici səbəblərdən biri əsasən xarici ticarətdən mədaxilin azalmasıdır. Daxili səbəblərə ölkə, hökümət daxilində inflyasiyaya səbəb olan prosesləri aid etmək olar. İnflyasiyanı yaradan səbəbləri müəyyən etmək ən vacib məsələdir.

İqtisadiyyatın hərbləşdirilməsi.
Azad rəqabətin inhisarla əvəz olunması.
Gəlirlərin yenidən bölgüsü.
Pul krediti və vergi sahəsində düzgün olmayan siyasətin aparılması.
Büdcə kəsrinin mövcudluğu.
Pul tədavülü qanununa əməl olunmaması.
Sərmayə qoyuluşunun həcmi.
Əmək haqqının əmək məhsuldarlığına nisbətən üstün artması.
Xarici iqtisadi amillər və s. inflyasiyanın artmasına səbəb olur.

## Bəs ölkəmizin iqtisadiyyatında vəziyyət necədir?

SİA mövzu ilə bağlı araşdırma edib. Pul kredit və vergi sahəsində düzgün olmayan siyasətin aparılması da inflyasiyaya səbəb olur. Belə ki, dövlət faiz dərəcəsini qaldırmaqla süni surətdə krediti bahalaşdırır. Bəzi müəssisələr yüksək faiz dərəcəsini ödəmək üçün əmtəələrin qiymətini artırır. Həmçinin düzgün olmayan vergi siyasəti nəticəsində, yeni mənfəətdən alınan verginin artırılması istehsala sərmayə qoyuluşunu azaldır. Buna müvafiq olaraq istehsal azalır. Belə olan halda istehsal azalır əmtəələrin qiyməti artmağa başlayır.

Büdcə kəsrinin mövcudluğu. Hər bir ölkənin büdcəsində az və ya cox dərəcədə büdcə kəsri problemi mövcuddur. Dövlət gəlirlərinin xərclərdən az olması nəticəsində dövlət büdcəsinin kəsrinin artması və büdcə kəsirinin yerinin doldurmaq üçün tədavülə yeni pul kütləsinin buraxılması inflyasiyaya səbəb olur.

Pul tədavülü qanununa əməl olunmaması. Real iqtisadiyyatda pulun miqdarı heç də pul tədavülü qanununun tələblərinə uyğun tənzimlənmir.

Məlumdur ki, pul tədavülü mərkəzi bankın inhisarındadır. Zəruri halda dövlət pul kütləsinin təklifini artırır bu da inflyasiyaya səbəb olur.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2022-ci ilin oktyabr ayında Azərbaycanda inflyasiya sentyabr ayında qeydə alınmış 3,1% səviyyəsində inflyasiyaya qarşı 1,6% təşkil edib. "Oktyabrda respublikada inflyasiya 1,6% təşkil edib. Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 2,2%, qeyri-ərzaq mallarının qiymətləri 1,3%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,9% bahalaşıb", - deyə məlumatda bildirilir.

2021-ci ilin oktyabr ayı ilə müqayisədə 2022-ci ilin müvafiq dövründə inflyasiya 15,6% təşkil edib. Cari ilin oktyabr ayında ərzaq malları ötən ilin eyni dövrü ilə müqayisədə 21% bahalaşıb.

Statistik məlumatlara görə, oktyabrda ət və ət məhsulları 2,8%, çörək və çörək məmulatları 1,8%, spirtli içkilər 0,3%, süd məhsulları 1,1%, mineral sular, sərinləşdirici içkilər və şirələr 1%, kərə və bitki yağları 0,8%, yumurta 2,7%, tərəvəz 5,8%, balıq və balıq məhsulları 2,4%, tütün məmulatları 0,1%, çay və kakao 6% bahalaşıb. Hesabat ayında meyvə 1% ucuzlaşıb.

***Havar Şəfiyeva***



# Qız üstündə dava edənləri ayırdı, özünü öldürdülər

Ötən gün Bakıda kütləvi dava olub, iki nəfər yaralanıb, bir nəfər ölüb. Belə ki, ağır cinayət Xətai rayonu, NZS qəsəbəsi, Mingəçevir küçəsində baş verib. Məlumata görə, yaralılardan 18 yaşlı Nemət Həsənov çox qan itirdiyindən o, xəstəxanada dünyasını dəyişib. Nemət qız üstündə dava edənləri ayırmağa çalışarkən qətlə yetirilib. Dünyasını dəyişən Nemət Həsənovun görüntüsünü təqdim edirik.




## TƏBRİK EDİRİK!

Səni sevənlər üçün gündüz günəş, gecələr parlayan ay, ulduz olan Fatimə!

Artıq bir ildir evimizə dünya boyda sevinc gətirmisən. Nə yaxşı ki varsan, gözəl bala! Allahdan arzumuz sənə cansağlığı, xoşbəxtlik, uzun və gözəl bir ömür yaşamağındır. Bu gün bir yaşını tamamlamaq xoşbəxtliyini yaşayarkən, arzu edirik ki, gələcək həyatın hər zaman gözəl və ürəyincə olsun.

***Bir yaşın mübarək, Fatimə!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**